www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 oktyabr 2015-ci il Çərşənbə axşamı № 238 (6266) Qiymәti 40 qəpik

Xəbər

## Axtarışda olan şəxs polisi güllələdi

yazısı səh.14-də

Gündəm

### Parlament seçkilərindən sonra MTN-də daha geniş "təmizləmə"lər olacaq



Sahibkarlara qarşı xüsusi əməliyyatlar haqda şok bilgilər; Namiq Abbasovun MTN-də boş saxladığı 500 vakant yerə kimlər təyin olunub?

yazısı səh.4-də

### Pərviz Həşimlinin atası prezidentə müraciət etdi

yazısı səh.3-də

### Müsavatın seçkilərin 4 ay sonra keçirilməsi tələbinə reaksiyalar gəldi

yazısı səh.6-da

### Sahibkar prezidentdən kömək istədi

yazısı səh.10-da

### "Sovetski" sakinləri İlhamiyyə Rza ilə görüşdü

yazısı səh.11-də

### Hakimiyyət müxalifətin kadr bankından istifadə edə bilərmi?

yazısı səh.13-də

### YAP-ın namizədi seçkidən çəkildi

yazısı səh.11-də

### Bakıda qətl törədən iki şəxsə üst-üstə 35 il cəza verildi

yazısı səh.14-də

### Azərbaycan "Putin İttifaqı"na qoşula bilər - Bakıdan Kremlə daha bir mesaj

yazısı səh.13-də

### Dilənçi polis bölməsində damarlarını doğradı

yazısı səh.14-də

### Başımıza düşən zibillər...

yazısı səh.15-də

*Ceyms Uorlik:*

### "Ermənistan və Azərbaycan silahların istifadəsindən imtina etməlidir"

yazısı səh.2-də

# "MTN işi"nə baş bankirin də adı qarışdı

# ELMAN RÜSTƏMOV GENERALLARIN XARİCƏ MİLYONLAR DAŞIMASINA NİYƏ ƏNGƏL OLMAYIB - ŞOK İDDİA

Milli Təhlükəsizlik Nazirliyinin sabiq rəhbərliyinin "Zaminbank" vasitəsilə offşor zonalara torbalarla nağd pul göndərməsinə Milli Bank rəhbərliyi illərlə seyrçi qalıb; "Zaminbank" haqda 3 il 8 ay öncə yazdıqlarımız bu gün təsdiqlənir...




yazısı səh.5-də

# Oqtay Əsədovdan sensasion Rusiya açıqlaması

Rəsmi Bakıdan seçki ərəfəsi Qərbə iki mühüm mesaj; Prezident Administrasiyasının rəhbəri Azərbaycan hakimiyyətinin mövqeyini açıqlayan məqalə yazdı: "Prezidentin yürütdüyü siyasət ölkəmizi qeyri-sabit görmək istəyən Qərb dairələrini qıcıqlandırır"...

yazısı səh.9-da



*İsgəndər Həmidov:*

### "Həbs edilən general yaxın qohumumdur"

yazısı səh.12-də



### Hacı İbrahimlə Ekologiya Nazirliyi arasında sənəd mübahisəsi

yazısı səh.10-da



### Abbas Abbasovun "əfv" məktubu onu xilas edəcəkmi....

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 238 (6266) 27 oktyabr 2015

# Prezident sahibkarlıq sahəsində yoxlamaların dayandırılması haqda qanun imzaladı

**Prezident İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" 2015-ci il 20 oktyabr tarixli qanunun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə fərman imzalayıb.**



APA-nın məlumatına görə, müəyyən edilib ki, bu fərmanın müddəaları vergi yoxlamalarına şamil edilmir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanuna əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı" təsdiq edilib. Siyahıda nəzərdə tutulan yoxlamalara aşağıdakı məhdudiyyətlər müəyyən edilib:

Yoxlamalar yalnız insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan halların mövcudluğuna əsaslar olduqda aparılır;

Siyahının 1.4-1.6-cı bəndlərində nəzərdə tutulmuş yoxlamalar istisna olmaqla, yoxlamalar İqtisadiyyat və Sənaye Nazirliyinin razılığı ilə aparılır;

Sahibkarın fəaliyyətinə təbiq edilən istehsalın və ya malın satışının dayandırılması, habelə digər məhdudlaşdırıcı tədbirlər yalnız İqtisadiyyat və Sənaye Nazirliyinin razılığı ilə tətbiq edilir.

Ədliyyə Nazirliyinə isə sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin aparılma qaydasının təkmilləşdirilməsinə dair təkliflərini İqtisadiyyat və Sənaye Nazirliyi ilə birlikdə 1 ay müddətində hazırlamaq, sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinə İqtisadiyyat və Sənaye Nazirliyinin real vaxt rejimində tam inteqrasiyasını təmin etmək və bu barədə Azərbaycan prezidentinə məlumat vermək tapşırılıb.

Vergilər Nazirliyi sahibkarların Azərbaycanda sahibkarlıq fəaliyyətini dayandırması barədə vergi orqanlarına müraciət etdiyi hər bir hal barədə dərhal İqtisadiyyat və Sənaye Nazirliyini məlumatlandırmalıdır.

İqtisadiyyat və Sənaye Nazirliyi isə sahibkarların nazirliyin "Qaynar xətt"inə daxil olan müraciətlərinin operativ araşdırılmasını təmin etməlidir, sahibkarların Azərbaycanda sahibkarlıq fəaliyyətini dayandırmasına dair müraciətləri barədə Vergilər Nazirliyindən daxil olmuş məlumatlar əsasında sahibkarlıq fəaliyyətinin dayandırılması səbəblərinin araşdırılması və həmin səbəblərin aradan qaldırılması üçün mümkün olan tədbirləri görməli və ya təkliflər verməlidir, habelə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanundan irəli gələn tələblərin pozulması hallarını aşkar etdikdə, bu barədə məlumatları Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim etməlidir.

Baş Prokurorluğa isə tövsiyə edilib ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanundan və bu fərmandan irəli gələn tələblərin pozulmasına dair məlumatların araşdırılmasını və aşkar olunmuş hüquq pozuntuları barədə müvafiq tədbirlərin görülməsini təmin etməli, bu barədə Azərbaycan prezidentinə mütəmadi məlumat təqdim etməlidir.

# Namizədliyini geri götürən Ramin Hacılı ölkədən getdi

**19 saylı Nərimanov 1-ci seçki dairəsindən deputatlığa namizəd Ramin Hacılı yoxa çıxıb. Bu haqda özünün facebook divarında "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı məlumat yayıb.**

Baş redaktorun oktyabrın 25-də gecəyarısı yaydığı məlumatı təqdim edirik: "Narahat bir xəbər var. Ramin Hacılıdan təxminən 5 saatdır xəbər yoxdur. O, seçkilərdən çəkildiyini elan edəndən və müraciət edib yayandan sonra yoxa çıxıb. Nə evdə yoxdur, nə işində yoxdur Ramin, nə telefonları cavab vermir, nə dostlarının xəbəri yoxdur, nə də xanımı Aysel Əlizadənin. Mən də çox narahat oldum və buradan Daxili İşlər Nazirliyinə - 102-yə müraciət edirəm. Raminin həyatı üçün təhlükə ola bilər..."

**Qeyd edək ki, Ramin Hacılı yoxa çıxmazdan əvvəl namizədliyini geri götürüb. Bundan əvvəl isə özünün facebook statusunda seçkilərlə bağlı status paylaşıb:**

"Beynəlxalq ictimaiyyətin tanımayacağı, xalqın səsinin nəzərə alınmayacağı, namizədlərə heç bir şans verməyən, dövlətin gücünü saxtakarlığa sərf edən hakimiyyətin seçki oyununu pozmaq ucun ölkəmizi səfərbər olmağa çağırıram».

Oktyabrın 26-da günorta saatlarında o, ailəsi ilə əlaqə saxlayaraq şəxsi problemləri ilə əlaqədar xaricə getdiyini, bu məsələləri həll edəndən sonra geri dönəcəyini bildirib.

❑ E.MƏMMƏDƏLİYEV












# Vəkili İlqar Məmmədovla bağlı mediaya təşəkkür etdi

**REAL Hərəkatının sədri İlqar Məmmədova yaxınları ilə telefonla danışmaq üçün icazə verilib. Eyni zamanda həyat yoldaşı Vəfa Məmmədovanın sözlərinə görə, İlqar Məmmədov həbsxanada döyülərək onun dişi də sındırılıb.**

Məsələ ilə bağlı İlqar Məmmədovun vəkili Fuad Ağayevlə əlaqə saxladıq. Vəkil bildirdi ki, detallı açıqlama vermək istəmir. Ancaq o da təsdiqlədi ki, artıq İlqar Məmmədovun telefon danışığı ilə bağlı qadağası götürülüb.

Eyni zamanda vəkil Cavad Cavadov da İlqar Məmmədovun son durumu ilə bağlı fikir bildirib. C.Cavadov media işçilərinə və hüquq müdafiəçilərinə öz təşəkkürünü edib:

"İlqar Məmmədovun 2 saylı cəzaçəkmə müəssisəsində telefonla zəng etmək hüququ bərpa olunub və o, artıq bu imkandan istifadə edib. Dəstəyə görə hamıya, o cümlədən media və hüquq müdafiəçilərinə təşəkkür edirəm. Ümid edirik ki, bu qanunsuzluqlar bir daha təkrarlanmayacaq".

Vəkil həmçinin bildirib ki, İlqar Məmmədovun döyülməsi ilə bağlı dövlət qurumlarına etdiyi müraciətlərə hələ də rəsmi cavab almayıb.

İ. Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova isə bildirib ki, müraciətlərdən sonra ombudsman və Ədliyyə Nazirliyinin əməkdaşları İlqar Məmmədovla görüşüblər:

"Sentyabrın 7-dən etibarən telefon danışığına qadağa qoymuşdular. Heç bir səbəb olmadan. Oktyabrın 24-də artıq qadağaya son qoyulub. Özü zəng etmişdi. Bizi əmin edirlər ki, bundan sonra heç bir problem olmayacaq".

O həmçinin bildirib ki, İlqar Məmmədov artıq özünü pis hiss etmir. Onun ağrıları getdikcə çəkilir.

Qeyd edək ki, İlqar Məmmədov 2013-cu il fevralın 4-dən həbsdədir. O, həmin il yanvarın 23-24-də İsmayıllıda baş vermiş hadisələr zamanı həbs olunub, 7 il azadlıqdan məhrum edilib.

❑ Əli RAİS

# Eldar Mahmudov üzə çıxdı

**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudov vəzifədən azad ediləndən bəri ilk dəfə ötən bazar günü üzə çıxıb və qudası, Azərbaycan Beynəlxalq Bankının keçmiş prezidenti Cahangir Hacıyevin anasının yasında iştirak edib.**

Milli.az xəbər verir ki, bu barədə virtualaz.org saytına məlumat verən mötəbər mənbə bildirib ki, Eldar Mahmudov mərhumun dəfn mərasimində də iştirak edib və bütün yas mərasimi boyu qudası C.Hacıyevin yanında dayanıb. Ancaq heç kimlə ünsiyyətdə olmayıb. Sabiq nazir fikirli və pərt görünüb.

Mərasimdə yüksək vəzifəli məmurların iştirak etmədiyi bildirilir.

Eldar Mahmudov vəzifədən qəfil azad olunandan sonra onun barəsində müxtəlif məlumatlar yayılmaqda idi. Bəzi mənbələr onun qeyri-rəsmi ev dustaqlığında olduğunu iddia edirdi.

Məlumatlara görə, Eldar Mahmudov hazırda Badamdardakı dəbdəbəli şəxsi iqamətgahında yaşayır.

# Əli İnsanovun qardaşı vəfat etdi

## Sabiq nazir həbsdən müvəqqəti azad edilə bilər




**Məhbəsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun qardaşı Məhəmməd Binnət oğlu İnsanov vəfat edib. Bu haqda Deportasiya Qurbanları Cəmiyyətindən məlumat daxil olub. Cəmiyyətdən göndərilən ismarışda Əli İnsanova, eləcə də İnsanovlar ailəsinə dərin hüznlə başsağlığı verilib.**

Əli İnsanov həbsdən azad edilə bilərmi? Xatırladaq ki, həm qanunvericilikdə, həm də praktikada məhbusların ailə üzvlərinin vəfat etməsi ilə əlaqədar 7 günlük həbsdən azad edilməsi təcrübəsi var. Məsələn, "Azadlıq" qəzetinin keçmiş redaktoru Qənimət Zahid, Müsavat başqanı Arif Hacılı həbsdə olarkən onlara öz valideynlərinin dəfnində iştirak etmək üçün şərait yaradılmışdı. Həmçinin vicdan məhbusu Tofiq Yaqublunun qızı Nərgiz Yaqublu vəfat edərkən, ona bir həftəlik məzuniyyət verilmişdi.

Vəkil Nemət Kərimli bildirdi ki, Cəzaların İcrası Məcəlləsinə əsasən cəza çəkən şəxslərin yaxın qohumları vəfat edərsə, yas mərasimində iştirak etmək üçün 7 günlük məzuniyyət verilə bilər: "Bu səlahiyyət, yuxarı orqanlara yox, birbaşa cəzaçəkmə müəssisəsinin rəisinə aiddir, yəni buna görə nə Penitensiar Xidmətə, nə də siyasi rəhbərliyə müraciət etməyə ehtiyac var".

2005-ci ildə həbs olunan Əli İnsanovun məhkumluğunun bitməsinə təqribən bir il vaxt qalıb.

# Ceyms Uorlik: "Ermənistan və Azərbaycan silahların istifadəsindən imtina etməlidir"

**"Təcavüzkar və ya cavab atəşi yerinə yetirən tərəf olmasından asılı olmayaraq, Ermənistan və Azərbaycan bu silahların istifadəsindən imtina etməlidirlər".**

APA-nın xəbərinə görə, bu barədə ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik özünün twitter səhifəsində paylaşdığı fotoya münasibətdə bildirib.

Qeyd edək ki, bu gün ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfəri başlayıb.

# Ağdam sakini Mingəçevirdə həmyerlisini güllələyib

**Mingəçevir şəhərində qətl hadisəsi baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə dünən şəhərin məcburi köçkünlər üçün yeni salınan qəsəbəsində qeydə alınıb.**

Ağdam rayonundan olan və hazırda Mingəçevirdə müvəqqəti məskunlaşan məcburi köçkün, 1984-cü il təvəllüdlü Əhmədov Şakir Rövşən oğlu şəxsi münasibətlər zəminində aralarında baş verən dava zamanı həmyerlisi, Ağdam rayon sakini, 1981-ci il təvəllüdlü Rəhimov Bəxtiyar Elmdar oğlunu öldürüb.

Şakir Əhmədovun pnevmatik tapançadan açdığı atəş nəticəsində döş qəfəsindən və ürək nahiyəsindən güllə yarası alan Bəxtiyar Rəhimov hadisə yerində dünyasını dəyişib.

Həmyerlilər arasında münaqişənin səbəbi hələlik məlum deyil. Hadisəni törədən Ş. Əhmədov qaçıb gizlənib. Onun tutularaq istintaqa təhvil verilməsi üçün hazırda Mingəçevir şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Faktla bağlı Mingəçevir Şəhər Prokurorluğu tərəfindən cinayət işi açılıb, araşdırma aparılır.

YENİ MÜSAVAT
N 238 (6266) 27 oktyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Media seçkilərə bu namizədlərlə gedir...

## Budəfəki parlamentdə jurnalist və baş redaktorlar az olacaq

**Parlament seçkilərinə sayılı günlər qaldı. Namizədlər arasında gedən savaş çox qızğın olmasa da, proses medianın diqqətindədir. Amma 2005 və 2010-cu il parlament seçkilərindən fərqli olaraq bu dəfə parlamentdə təmsil olunmaq istəyən baş redaktor və jurnalistlər sayca azlıq təşkil edir. Seçkidən öncə bu barədə çoxlarının planı olsa da, seçkiyə az qalmış ümumi durumu qiymətləndirəndən sonra bundan vaz keçiblər.**

Hazırda deputatlığa namizədlər arasındakı jurnalist və media nümayəndələri kimlərdir?

Azərbaycan Respublikasının Milli Məclisinə 62 saylı Saatlı seçki dairəsindən deputatlığa namizəd Mətbuat Şurasının sədri Əflatun Amaşovdur. Ə.Amaşov hazırda təbliğat kampaniyası çərçivəsndə Saatlıda seçicilərlə görüşür. Maraqlıdır ki, görüşlər zamanı MŞ sədrini qurumun İdarə Heyətinin üzvləri müşayiət edir, görüşlərdə onlar da iştirak edirlər.

"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov da namizədlərdəndir. Yeni Azərbaycan Partiyası tərəfindən 119 saylı Ağdam kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş baş redaktor seçiciləri ilə görüşlərdədir.

"Ədalət" qəzetinin təsisçisi, millət vəkili Aqil Abbas namizədliyini 83 saylı Ağcabədi-Füzuli seçki dairəsindən irəli sürüb. O, təşviqat kampaniyası dövründə həmin rayonlarda olur.







Namizədliyini irəli sürən şəxslərdən biri də tanınmış jurnalist İlhamiyyə Rzayevadır. O, 2015-ci il seçkilərinə hədəf olaraq yaradılan "125"lər siyasi klubunun sədridir. Jurnalist 17 saylı Yasamal rayon 3-cü seçki dairəsindən namizədliyini irəli sürüb. Maraq üçün deyək ki, həmin seçki dairəsi üzrə hazırkı deputat Ülvi Quliyevdir.

"125-lər" siyasi klubunun 8 saylı Binəqədi 1-ci seçki dairəsindəni namizədi - Aysel Əlizadə (Alim qızı) da seçkidə iştirak edən tanınmış yazarlardandır. A.Əlizadə "Yeni Müsavat"da da köşə yazıları ilə çıxış edir.

Tanınmış jurnalist, "Turan" informasiya agentliyində iqtisadi informasiyalar yazan Hafiz Babalı da deputatlığa namizəd olanlar arasındadır. O, REAL Hərəkatının üzvü kimi seçkilərə qatılıb. 25 ilə yaxındır mətbuatda çalışan H.Babalı 42 saylı Sumqayıt İkinci seçki dairəsindən Milli Məclisin üzvlüyünə namizədliyini irəli sürüb.

"Xalqxeber.Az" informasiya agentliyinin baş redaktoru Peyman Sadıqov 46 saylı Şirvan seçki dairəsindən deputatlığa namizədliyini irəli sürüb.

"Sumqayıtxəbər.az" portalının rəhbəri Eyvaz Qocayev də deputat olmaq istəyir. Baş redaktor seçkilərdə Sumqayıt şəhər 43 saylı üçüncü seçki dairəsindən namizədliyini verib. Namizəd artıq seçicilərlə görüşlər keçirir və bu barədə mediada məlumatlar yer alır.

"Gundeminfo.az" saytının rəhbəri Razi Abasbəyli də namizədliyini irəli sürüb. Artıq jurnalistin seçki qərargahı fəaliyyətə başlayıb. R.Abasbəyli 63 saylı Sabirabad I seçki dairəsindən deputatlığını verib.

Tanınmış jurnalist, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli 1 noyabr 2015-ci ildə keçiriləcək Milli Məclisə seçkilərdə iştirakını dayandırıb. Xatırladaq ki, E.Mirzəbəylinin namizədliyi 73 saylı Lənkəran şəhər seçki dairəsindən irəli sürülmüşdü.

"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev isə budəfəki parlament seçkilərində iştirak etmək istəməyənlərdir. Onlar bu barədə qəti qərarlarını seçkidən öncə veriblər.

❑ **Sevinc TELMANQIZI**

# Həbsdəki jurnalistin atası prezidentə müraciət etdi

## Pərviz Həşimlini bu gün azadlığa buraxa bilərlərmi?

**8 il azadlıqdan məhrum edilən jurnalist Pərviz Həşimlinin atası Kamran Həşimli prezident İlham Əliyevə müraciət edib. Müraciətdə bildirilir: "Pərviz Həşimli 2013-cü ilin 17 sentyabrında məhz bu gün adları cəmiyyətdə qarğış və lənətlə qarşılanan bir çox yüksək çinli MTN generalları, xüsusən də MTN Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev tərəfindən tamamilə qanunsuz ittihamlarla həbs edilərək 8 il müddətinə azadlıqdan məhrum edildi.**

Onu şərləyərək həbs edənlər qondarma istintaqda açıq şəkildə oğluma demişdilər ki, ölkənin yiyələri bizik və bizim bir sözümüzü iki edən ya həbsdə, ya o dünyada, ya da canını qurtarmağa nail olanlar mühacirətdədir. Ona görə də yaşamaq istəyirsənsə, ailənin, azyaşlı övladının başına bir iş gəlməsini istəmirsənsə yazdıqlarımıza imza atmalısan və buna görə də hətta sənə 1 milyon dollar pul da verməyə söz veririk. Təbii ki, onlar bu pulu öz ciblərindən deyil, şərləmək istədikləri yüksək çinli vəzifəli şəxslərdən ala biləcəklərini zənn edirdilər. Amma Pərviz Həşimli onların bu yaramaz sövdələşmə təklifinə boyun əyməyərək mərdi-mərdanə ona verilən işgəncələrə sinə gərdi. Təbii ki, edilən şərəfsiz təkliflərlə razılaşmaması ona baha oturdu, ağır cinayətdə ittiham edilərək uzunmüddətli həbs cəzası aldı, ailəsi və azyaşlı övladı sözlə ifadə edilməsi mümkünsüz sarsıntılardan və məhrumiyyətlərdən keçməli oldular. Amma Allah belə bir zülmü yerdə qoya bilməzdi və çox şükürlər olsun ki, cəmi iki ildən sonra MTN-də general poqonlu adamların misli görünməmiş cinayətləri ifşa olundu. Bu bizə əzab və eyni zamanda rahatlıq verdi ki, oğlumuzun günahsız olduğunu hər kəs bilsin".

**Kamran Həsənli 2 il əvvəl keçirdiyi mətbuat konfransını xatırlayaraq qeyd edir ki, o vaxtkı nazir Eldar Mahmudova bildirib ki, ömrünü gənc nəslin tərbiyəsinə həsr etmiş pedaqoq olduğu üçün ailəsində silah qaçaqmalçısı ola bilməz:** "Eyni zamanda onu da bildirmişdim ki, əgər terrorçu, silah qaçaqmalçısı tapmaq istəyirsənsə, ətrafına bax və əgər yoxlanılsa, sənin yanındakıların elə terrorçu olduğu üzə çıxar. Allahıma min dəfə minnətdaram ki, dediklərim doğru çıxdı və Eldar Mahmudov tərəfinizdən cəzalandırıldı. Ümid edirəm ki, bu hələ son deyil və millətə divan tutan belə bir qurumun rəhbəri daha ağır cəzaya məhkum edilməlidir"(moderator.az).



**P.Həşimlinin həyat yoldaşı İlahə Rüstəmova musavat.com-a açıqlamasında bildirdi ki, Pərvizlə telefonla danışanda bu məsələ barədə də müzakirə aparıblar. Müsahibimizin sözlərinə görə, ailə olaraq növbəti məhkəmə instansiyasında obyektiv qərarın çıxarılacağına ümid edirlər:** "Əgər obyektiv məhkəmə keçsə, Pərvizə bəraət verilər. Çünki İlqar Əliyevin Pərvizə şər atdığı açıq-aşkar görünür. Oktyabrın 27-dəki məhkəməyə ümid edirik".

**P.Həşimlinin vəkili Bəhruz Bayramov isə daha öncə bizə açıqlamasında bildirib ki, jurnalistin həbsində MTN-in Antiterror Mərkəzinin rəisi Elçin Əliyev və onun müavini İlqar Əliyevin birbaşa əli var idi:** "Pərviz deyirdi ki, həbs olunanda İlqar Əliyevin otağında ona işgəncə verə-verə Əli Nağıyevin və başqalarının əleyhinə olan saxta ifadəyə qol çəkdirmək istəyiblər. Hər 5 dəqiqədən bir İlqar Əliyev Hilal Əsədova məlumat verirmiş. Pərviz qol çəksəydi, müəyyən şəxslər həbs olunmalı idi. Xüsusi təyinatlılar hazır vəziyyətdə dayanıblar. Bu proses səhərə qədər davam edib. Görüblər ki, mümkün deyil, ondan sonra xüsusi təyinatlıları sərbəst buraxıblar. Bütün bunları Pərviz mənə dedi. Mənə onu da dedi ki, həmin saxta ifadəyə qol çəkməsi üçün İlqar Əliyev onu gah döyürmüş, gah da şirnikləndirici təkliflər edirmiş. Məsələn, deyirmiş ki, həmin məmurlar haqda yalandan ifadə versə, ona 1 milyon pul verəcəklər, həmçinin geniş imkanlar yaradacaqlar".

Pərviz Həşimlinin oktyabrın 27-də Ali Məhkəmədə prosesi olacaq. Qeyd edək ki, jurnalist 2013-cü il sentyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyatla saxlanılıb. Ona qarşı odlu silahın və döyüş sursatının qaçaqmalçılığı, odlu silah saxlama maddələri ilə ittiham irəli sürülüb. Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 may 2014-cü il tarixli hökmü ilə Pərviz Həşimli 8 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **Sevinc TELMANQIZI**

# Nəticəsi bəlli oyunlara görə mərc qoşmazlar



**Samir SARI**

**O gün, "Qalatasaray" - "Fənərbağça" derbisindən öncə beynəlxalq bukmeker kontorları bu oyunla bağlı yeni və unikal mərc lotları təqdim etmişdilər. Mərcqoyanlar "cim-bom"un forvardı Burak Yılmazın penalti qazanmaq qəsdi ilə özünü yerə atacağı təqdirdə sarı kart alıb-almayacağı üzrə mərc qoymalıydılar.**

Daha bir mərc isə "Fənər"in qapıçısı Volkanın üstünə gələn topu dalıyla saxlayıb-saxlamayacağı üzrəydi.

Yeri getməmişkən, deyim ki, oyunun gedişində rəqibləri Burakı babat yıxdılar, amma hakim nə penalti vermədi, nə də Buraka sarı kart. Ta orasını da bilmirəm ki, kim bu lota mərc qoymuşdu, kim uddu.

Ümumiyyətlə, bu əcnəbilərdə qaydadır, hər şeyə görə mərc qoşurlar. Amerikanın növbəti prezidentinin kim olacağıyla bağlı mərc lotu təklif edən kontorlar var, "Eurovision" musiqi yarışmasının növbəti qalibinin hansı ölkə olacağı ilə bağlı da. Udanlar xeyli pul qazanır.

Təbii ki, udanlardan qat-qat artıq miqdarda uduzanlar da olur. Çünki 7-8 namizədin qatıldığı seçkidə kimin qalib olacağını öncədən söyləmək çox çətindir. Hətta axıra iki namizəd qalanda da udub-uduzmaq ehtimalı 50:50-yədir. "Eurovision" da onun kimi. Hər il 45-50 ölkə yarışmaya qatılır, hamısı da öz musiqi nömrəsini favorit sayır, amma axırda biri qalib gəlir.

Bu baxımdan bir qayda olaraq bu qumarda oynayanlar yox, qumarı təşkil edənlər qazanır. Bütün qumarlarda belədir, zatən.

Ancaq sizi inandırıram ki, o beynəlxalq bukmeker kontorları 3 gündən sonra ölkəmizdə keçiriləcək parlament seçkilərində 125 dairə üzrə kimlərin deputat seçiləcəyi ilə bağlı mərc qoysalar, müflis olarlar.

Ona görə ki, bu ölkədə seçicilər də, müşahidəçilər də, politoloqlar da, hətta namizədlərin özləri də kimlərin deputat seçiləcəyini öncədən yüzdə doxsan doqquz faiz dəqiqliyi ilə bilirlər.

Bu, heç kəsə sirr deyil. Bunu bilmək üçün uzun-uzadı analizlər aparmağa ehtiyac yoxdur.

Zatən, futbolda da belədir, satılmış oyunlara dair proqnozlar yüzdəyüz düz çıxır. Burada üzərimə məsuliyyət götürüb "satılmış mandatlar"dan bəhs edə bilmərəm, amma peşkəş edilmiş mandatlardan danışa bilərəm.

Məsələn, kim istəyir gəlsin 10 min dollardan mərcləşək, mən deyirəm, Siyavuş Novruzov bu il də deputat seçiləcək, kim əksini söyləyirsə, çıxsın qabağa.

Talıbov Vasif Yusif oğlunun mandat alacağı gözəgörünməzə də agahdır, amma kim iddialıdırsa, gəlsin, İsa Həbibbəylinin deputat seçilib-seçilməyəcəyi ilə bağlı mərcə girək. Mən deyirəm, seçiləcək.

Mixail Zabelinin qabağını kim ala bilər, üst-üstə yeddi səs almasa da, mandatın biri onundur. Mərcə girən varmı?

56 saylı seçki dairəsindən Əliyev İlham Əlisəttər oğlunun mandat alıb-almayacağı ilə bağlı mərc qoşmaq istəyən varmı? Varsa, mən hazır, "alacaq" deyirəm.

Əslində bu proqnozları verərkən Cəmil müəllimin açıqladığı siyahıya istinad etmək olar, amma orda 3-4 faiz yanlışlıq da ola bilər, amma 125 dairənin 120-si üzrə artıq məsələ məlumdur.

Təsəvvür edin, hər bir adamın 125 proqnozunun 120-si doğru çıxsa, buna hansı bukmeker kontoru dözər? Heç biri. Hamısı bankrot olar.

Bu "Barselona", "Real", "Bavariya" deyil ki, bu güclü komandaların oyununa dair proqnoz verərkən qələbə ilə yanaşı, heç-heç və məğlubiyyət variantlarını da gözə alasan və bəzən iş elə gətirə ki, o güclü komandalar oyunu uduzub sənin proqnozunu yandıralar.

Bu, Siyavuş Novruzovdur, o "Real"dan da güclüdür, Ceb Buşdan da, o, həmişə seçilir və namizədliyini verdiyi bütün seçkilərdə seçiləcək. Amma ola bilər ki, Ceb Buş seçilməsin, heç namizəd olmasın - nə olsin ki, onun atası və qardaşı prezident olublar. Amma Cavanşir Paşazadə necə seçilməyə bilər. Göydən daş yağar.

Dediyim odur ki, bizdə seçki bax bu cürdür. Mübahisəlik, bəhslik, mərclik bir şey yoxdur. Hər şey öncədən bəllidir.

Əslində bunun özü də bir növ xoşbəxtlikdir, mərcə girib özünü yandıran olmur. Baxın, srağagün bir türkiyəli futbol fanatiki öz avtomobilini bazarda satıb, bütün parasını da "Fənərbağça"nın qələbəsinə qoyub. "Fənər" də heç-heçə etməklə adamı uduzdurub. Di get.



# Baxçəlinin vədi - Türkiyənin şansı...

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Türkiyə müasir tarixinin bəlkə də ən qəliz dönəmindən keçir. Bu dönəmi onun uğurla adlayacağı cəmi bir neçə gündən sonra keçiriləcək erkən parlament seçkiləri və həmin seçkilərin nəticələrinə Türkiyənin aparıcı siyasi güclərinin nə dərəcədə məsuliyyətli yanaşmasından asılı olacaq. Kaş ki, qardaş cümhuriyyət təzədən yağışdan çıxıb yağmura düşməyə, çoxdan gözlənilən günəşli havaya tuş gələ.**

Vaxta çox az qalıb. Bölgədə sürətlə cərəyan edən proseslər diktə edir ki, ölkə qısa müddətdə stabil, legitim hökumətə sahib olub üzləşdiyi son dərəcə yeni təhlükələrə, daxili və xarici təhdidlərə, o sırada terror şantajına qarşı hərəkətə keçsin, onlara qarşı təcili və effektli kontr-mexanizmlər hazırlasın. Bu mənada vəziyyəti sürətli şahmat oyunu ilə müqayisə eləmək olar: "şahmat taxtası" arxasında düşünüb qərar vermək üçün oyunçulara çox az vaxt ayrılıb...

"Hər kəs arxayın olsun, 1 noyabrdan sonra Türkiyə hökumətsiz qalmayacaq". Bu sözləri MHP lideri Dövlət Baxçalı Ankaradakı son möhtəşəm mitinqdə çıxışı zamanı bildirib. Türklər demiş, "pek iyi". Hörmətli Dövlət Baxçəlinin çıxışındakı başqa bir pozitiv və ümidverici məqam isə onun ölkənin düşdüyü vəziyyəti və üzləşdiyi təhdidləri dəqiq təsvir edərək sıralamasıdır. Hərçənd, Türkiyənin aylardır hökumətsiz qalmasından qaynaqlanan mövcud əlverişsiz vəziyyətə görə aparıcı siyasi güclərdən biri kimi MHP də məsul sayılır.

Təəssüf ki, 7 iyun parlament seçkilərindən sonra ən real koalisiya formatlarından hesab edilən AKP-MHP ortaq hökuməti qurulmadı. Beləcə, Azərbaycan da daxil, dost-müttəfiqlər məyus oldu, rəqiblər və türk düşmənləri isə sevindilər. İndi xalq belə daha bir şansı noyabrın 1-də verə bilər, çünki bir sıra ekspertlərə görə, erkən seçkilərin nəticələri əvvəlkindən ciddi fərqlənməyə bilər.

Amma yenə əndişə var. Bu da odur ki, sayın Baxçəli öz çıxışında hakim APK-nin ünvanına sərt ittihamlar yağdırıb. Ola bilsin MHP bununla koalisiya məsələsi yenidən gündəmə gələrsə, ənənəvi mövqe sərgiləyəcəyinin anonsunu verib. Keşkə, yanılaydıq. Keşkə, həqiqətən Türkiyəmizin siyasi taleyi bu iki siyasi qüvvədən asılı duruma gələrsə, onların hər ikisi bir addım geri verib, xalqın da, regionun və dünyanın da intizarla gözlədiyi yeni hökumətə "hə" deyə biləydi, sayın Baxçəli demiş, 1 noyabrdan sonra Türkiyə gerçəkdən, hökumətsiz (əslində - başsız) qalmayaydı...

Əlbəttə, siyasətçi öncə ölkənin düşdüyü durumdan çıxış etməlidir. Türkiyə isə hazırda ideoloji baxışlarından asılı olmayaraq sağlam qüvvələrin hamısının dövlətin və millətin təhlükəsizlik məsələsi ətrafında, ön şərt qoymadan bir araya gəlməsini tələb edir. Belədə şərt qoymaq əslində elə millətə, dövlətə minnət qoymaq kimi çıxır. Hər halda, hökumətlər, partiyalar gəldi-gedərdi, Türkiyə dövləti isə - qalıcı. Onu sonrakı nəsillərə daha qüdrətli, basılmaz, demokrat qiyafədə təhvil vermək ölkənin hazırkı siyasi kəsiminin boyun borcudur.

Obrazlı desək, "qasırğalı dəniz"də mənzil başına çatmaqdan ötrü ən mühüm məsələ hamının yer aldığı "Türkiyə" adlı gəmini təhlükələrdən, aysberqlərdən, qayalıqlardan salamat qurtarmaqdır. Əsas hədəf budursa, o zaman siyasi liderlərdən kimin gəminin hansı hissəsində qərar tutmasının önəmi qalmır.

Onu da unutmaq olmaz ki, Türkiyə xalqı milli maraqlar naminə ortaq mövqeyə gələ bilməyən qüvvələrə bir dəfə artıq dərs verib - 2001-ci ildə onların hamısına etimadsızlıq göstərərək AKP-ni təkbaşına iqtidar etməklə. Bu dəfə təhlükə var ki, AKP də "qara siyahı"ya düşsün, əgər o da koalision hökumət yönündə bir neçə addım geri durmaq iradəsi göstərməsə...

***

Türkiyənin ayaqda olması sözsüz ki, Azərbaycanın da ayaqda olması deməkdir. Türk dünyasının, regionun favorit dövlətinin zəifləyib sıradan bir dövlətə çevrilməsinə bais olanları nə xalq, nə də tarix bağışlamaz. Hər halda, şər deməsən, xeyir gəlmir. Bu xüsusda MHP liderinin vədinin - Türkiyənin gerçək şansının reallaşacağına inanmaq istərdik.

# Parlament seçkilərindən sonra MTN-də daha geniş "təmizləmə"lər olacaq

## Sahibkarlara qarşı xüsusi əməliyyatlar haqda şok bilgilər; Namiq Abbasovun MTN-də boş saxladığı 500 vakant yerə kimlər təyin olunub?



**Milli Təhlükəsizlik Nazirliyindəki "təmizləmələr" davam edir. İdarə və şöbə rəisləri tutduqları vəzifələrdən uzaqlaşdırılır, sıravi işçilərin E.Mahmudovun komandasından olub-olmaması saf-çürük edilir. Mədət Quliyevin qurumun rəhbərliyinə gətirilməsi ilə başlanan prosesin 1 həftə sonra keçiriləcək parlament seçkilərindən sonra daha böyük miqyas alacağı bildirilir.**

Hazırda Baş Prokurorluqda illərlə qapalı qalan MTN-lə əlaqəli işlərin qruplaşdırılması da davam etdirilir. Seçkidən sonra Eldar Mahmudovun 11 illik nazirliyi dövründə baş verən cinayətlərlə bağlı ictimaiyyətə əlavə açıqlamaların veriləcəyi də gözlənilir. Hələlik isə seçkiöncəsi olduğundan hakimiyyət qurumda baş verənlərlə bağlı informasiyaların yayılmasında o qədər də maraqlı deyil...

**Mahmudov haradadır?**

Oktyabrın 17-də Eldar Mahmudov milli təhlükəsizlik naziri postundan uzaqlaşdırılmazdan əvvəl Prezident Administrasiyasına çağırılıb. Orada nazirin telefonları götürülüb. E.Mahmudov Prezident Administrasiyasında olduğu dəqiqələrdə televiziyada, mətbuatda onun tutduğu vəzifədən azad olunması haqda prezidentin sərəncamı yayılıb. E.Mahmudovu Prezident Administrasiyasında nəzarət altında yaşadığı ünvana aparıblar. Hazırda Eldar Mahmudov nəzarətdədir.

**Sabiq nazirin yaxın adamı Danimarkaya qaçıb**

Redaksiyamıza daxil olan məlumatda qeyd olunur ki, MTN-də həyata keçirilən əməliyyat məxfi keçirilsə də, E.Mahmudovun bəzi adamları ölkə sərhədlərini aşmağa imkan tapıblar. Onlardan birinin Danimarkaya qaçması haqda məlumat var. Qeyd olunur ki, həmin şəxs 2 il əvvələ qədər sabiq nazirin ən yaxın çevrəsinə daxil olub. Sonradan isə onunla E.Mahmudovun münasibətləri korlanıb. Buna görə də o, nazirin ətrafında olmayıb. Bununla belə, həmin şəxsin MTN-də, birbaşa Eldar Mahmudovun ətrafında cərəyan edənlərdən məlumatlı olması, sabiq nazirin bir çox sirlərinə vaqif olması onu istintaq üçün qiymətli şahidə çevirə bilərdi. Belə bir şəxsin ölkədən çıxarılmasının təsadüfi olmadığı deyilir.

**Eldar Mahmudovun haqq yığanı...**

MTN-dəki həbslərdən sonra aydın oldu ki, qurumda rüşvətlə vəzifəyə təyin etmə geniş yayılıb. Vaxtilə rüşvətin keçmədiyi bir qurum tamamilə rüşvət bataqlığına çevrilib. Qaynağımız deyib ki, Namiq Abbasovun nazir olduğu dövrdə MTN-də 500-ə yaxın vakant yer olub. Həmin yerlərə N.Abbasov təcrübəli kardların olmaması səbəbindən təyinatlar etməyib. E.Mahmudov nazir təyin olunandan 5-6 ay sonra həmin ştatlara təyinatlar gerçəkləşib. MTN-də illərlə boş qalan postları varlı şəxslərin övladları tutub.

**MTN-in xərac toplayanları...**

11 il ərzində MTN-in rayon şöbələrindən xərac toplanması da redaksiyamıza daxil olan məlumatlar sırasındadır. Qaynağımız bildirib ki, əvvəllər nazirin köməkçisi, sonradan Xüsusi İnspektorluğun rəisi polkovnik Qədir Əkbərov və onun sağ əli hesab olunan İslam adlı şəxs əməkdaşları təqib edərək daima rüşvət verməyə məcbur edib. MTN-dəki bütün qanunsuz işdən azad etmələrin başında Qədir Əkbərovun durması haqda da iddia var. Bildirilir ki, bu şəxs hər ay MTN-in rayon şöbələrinin rəislərindən haqq-hesab yığıb.

**Ermənistandan gələn zəngin və xüsusi əməliyyatların qazandırdığı milyonlar...**

MTN-də sahibkarların qanunsuz olaraq saxlanılması, onların qondarma ittihamlarla təhdid edilərək pul alınması haqda geniş məlumatlar da var. Redaksiyamıza daxil olan məlumatda isə MTN-çilərin pul qoparmaq və eyni zamanda iş gördükləri qənaətinin formalaşması üçün atdıqları ağlasığmaz addımlar haqda da bilgi verilir. Qaynağımız deyib ki, Azərbaycanda nümayəndəlikləri olan ən müxtəlif şirkətlərdən "Ermənistanla danışmısız" ittihamı ilə pul qoparılıb.

Rüşvətqoparma sxemi isə belə olub: Bu və ya digər şirkətin rəhbərliyi əvvəlcə quruma dəvət olunub. Dəvət olunmuş şəxsə üzərinə böyük məbləğ yazılmış kağız parçası təqdim olunub. Həmin məbləği ödəmək istəməyən sahibkar heç bir maneəsiz qurumdan buraxılıb.

Bundan sonra çirkin plan işə düşüb. Qaynağımız bildirir ki, Rusiyada erməni əsilli şəxs tapıb ona Bakıya zəng edib bu və ya digər şirkətin malları, qiymətləri ilə maraqlanmaq tapşırılıb. Az sonra isə həmin şirkətə erməni zəng edib satdıqları mallarla maraqlanır. Rus dilində aparılan danışıqların sonunda danışanın erməni olmasına işarə vurulurmuş. 3 gün sonra isə şirkətdə MTN xüsusi əməliyyat keçirib və "Ermənistanla danışmısız, dövlətə xəyanət etmisiz" ittihamı irəli sürülürmüş.

Dövlətə xəyanət ittihamı ilə həbs olunanların ömürlük azadlıqdan məhrum edildiklərini xatırlatmaqla sahibkarlardan böyük məbləğlərdə rüşvət alınırmış. Qurulan oyunun - Bakıdakı şirkətə ermənin zəng etməsinin MTN-çilər tərəfindən təşkil edilməsini isə sahibkarlar məhkəmədə sübut etməsi bir qayda olaraq mümkün olmurmuş. Əlbəttə ki, iş məhkəməyə gedib çıxardısa...

Məhkəməyə göndərilən işlər isə MTN-in dövlətə xəyanət etmişləri aşkarlayaraq zərərsizləşdirməsi haqda statistik məlumatlarda özünə layiqli yer tutub. Belə "xüsusi əməliyyatlar"da fərqlənənlərin "İgidliyə görə" və digər orden və medallarla, rütbələrlə təltif olunmaları üçün ölkə rəhbərliyinə təqdimatlar yazılıb. Həqiqi igidlik edərək ölkənin maraqlarını müdafiə etmiş MTN-çilərə isə ögey münasibət sərgilənib.

Belə "xüsusi əməliyyat"ların qurbanına çevrilən sahibkarların bir çoxu böyük məbləğlərdə pul ödəməklə canlarını qurtarmağa üstünlük veriblər. Onların bəziləri bu gün də bu haqda danışmağa cürət eləmir....

**Sahibkarın anası: "Oğluma orada işgəncə veriblər, ayağını sındırıblar"**

**Hazırda həbsdə olan sahibkar Vəliyev Hafiz Ramiz oğlunun anası Dilzarə Vəliyeva "qafqazinfo"ya deyib ki, 2013-cü ilin may ayında oğlunu heç bir günahı olmadan qanunsuz olaraq MTN əməkdaşları həbs ediblər:** "Oğlum İrandan qab-qacaq gətirməklə məşğul idi. O, İrana mal dalınca gedərkən aeroportda MTN əməkdaşları tərəfindən saxlanılıb. Üç gündən sonra onun yerini bildik. Ondan qanunsuz olaraq 100 min manat pul tələb ediblər. Hafiz kiçik bizneslə məşğul idi. Bu qədər pulu hardan alsın? Tələb olunan rüşvəti vermədiyi üçün onun boynuna yalandan narkotik ittihamını qoydular. Vəkil tutmaq istəsək də, MTN buna imkan vermədi. 1 il yarımdır ki, MTN yollarında qalmışıq. Oğluma orada işgəncə veriblər, ayağını sındırıblar. Biz məsələni gizli saxlamayıb ictimailəşdirdiyimiz üçün oğlumun boynuna növbəti yalan ittiham "vətənə xəyanət" ittihamı kimi ağır maddəni qoydular. 01.08.2014- cü il tarixdə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə CM-in 274 və 234.4.3-cü maddəsi ilə ittiham olunaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunub.

Oğlumla bərabər, onun ətrafında olan 12-yə yaxın iş adamını da tutmuşdular. Amma onlardan pullarını alıb buraxdılar".

**D. Vəliyeva qeyd edib ki, oğlunu tanıyanlar onun necə vətənpərvər insan olduğunu yaxşı bilirlər:** "Amma yalandan onun boynuna bu ağır maddəni qoyublar, ömürlük həbs məhkum ediblər. 3 qız övladı atalarının yolunu səbirsizliklə gözləyir. Biz haqsızlığın qurbanı olaraq ömürlük azadlıqdan məhrum edilmiş övladımızın tezliklə həbsdən çıxmasını istəyirik. Ümid edirik ki, MTN-in quldur dəstəsinə qarşı mübarizə aparıldığı bir vaxtda bizim müraciətimiz də müvafiq qurumlar tərəfindən araşdırılacaq. Cənab prezidentə də müraciət edərək ədalətin bərpa olunması üçün ondan yardım istəyirik".

Hazırda MTN cinayətləri ilə bağlı yaradılan istintaq qrupunda iş adamlarının dindirilməsi prosesi davam edir. Məlumatlara görə, onlarla iş adamı qrupa müraciət edərək məruz qaldıqları təzyiqlər, ödədikləri pullarla bağlı məlumatlar verirlər.

❑ E.MƏMMƏDƏLİYEV

## "MTN işi"nə baş bankirin də adı qarışdı



# Elman Rüstəmov generalların xaricə milyonlar daşımasına niyə əngəl olmayıb - şok iddia

### Milli Təhlükəsizlik Nazirliyinin sabiq rəhbərliyinin "Zaminbank" vasitəsilə offşor zonalara torbalarla nağd pul göndərməsinə Milli Bank rəhbərliyi illərlə seyrçi qalıb; "Zaminbank" haqda 3 il 8 ay öncə yazdıqlarımız bu gün təsdiqlənir...

**Bank sektorunun "MTN işi" ilə bağlı əlaqələrinə dair yeni məlumatlar almışıq. Ölkənin öndə gələn bir neçə bankı ilə MTN generallarının əlaqələri üzə çıxıb.**

MTN-in işdən çıxarılan və həbs edilən zabitlərinin bank sektoruna da ciddi təsirləri olub. Özlərinin nəzarətlərindəki banklardan əlavə, digər bankların fəaliyyətinə də müdaxilələr ediblər. Məsələn, 2012-ci ilin martında "Texnikabank"la bağlı MTN-in əməliyyatı oldu. Bankı rəhbərliyi həbs edildi, həbs edilməyənlər isə işdən çıxarıldılar. Ardınca "Texnikabank" demək olar ki, yağmalandı. E.Mahmudov bu bankı qudası Cahangir Hacıyevin əli ilə tamamilə öz nəzarətinə keçirdi. Ölkənin ən qabaqcıl 5 bankın biri olan "Texnikabank" C.Hacıyevin və onun barbar komandasının əliylə yerlə yeksan edildi. Artıq bu bank demək olar ki, tamamilə müflis edilib. Yada salaq ki, ötən həftə "Texnikabank"ın Müşahidə Şurasının rəhbəri Rövşən İsmayılov öz xahişi ilə tutduğu vəzifədən uzaqlaşıb.

MTN-in sabiq rəhbərliyinin nəzarətində olan banklardan biri də "Zaminbank"dır. Bu banka nəzarəti əsasən MTN-in Transmilli Cinayətkarlıqla Mübarizə İdarəsinin sabiq rəis müavini, hazırda məhkəmənin hökmü ilə 3 aylıq həbs cəzası almış Füzuli Əliyev edirmiş. Onun qardaşı sözügedən bankda filial müdiri vəzifəsində çalışır.

"Zaminbank" adı qara işlərdə hallanan banklardandı. Bu qurum haqda googlе-də axtarış verdikdə qarşımıza xeyli neqativ tonda yazılmış məqalələr çıxır. O məqalələrdən biri 2012-ci ilin fevralında musavat.com-da dərc olunub. 3 il 8 ay öncə yazılmış həmin məqaləyə göz atdıqda bu gün "MTN işi" ilə bağlı ortada olan xeyli iddialara aydınlıq gəlir. Həmin yazıdan bir hissəni oxucuların diqqətinə çatdırırıq:

**""Zaminbank" hər gün 50 milyonu necə əridir?**

Yazının girişində 18 fevral 2012-ci il tarixli sayımızdakı məqalə haqda söhbət açmışdıq. Bir daha xatırladaq ki, Rusiya hüquq-mühafizə orqanlarının Moskvada keçirdikləri əməliyyat nəticəsində Azərbaycandan qeyri-leqal yollarla nağd şəkildə milyonlarla dollar pul daşıyan bir neçə nəfər saxlanılıb. Yazı işıq üzü gördükdən sonra iqtidara kifayət qədər yaxın olan bir neçə vicdanlı millət vəkilləri, müstəqil iqtisadçılar bu mövzuda bizə bəzi ip ucları verdilər. Onların iddialarına görə, Rusiya üzərindən hər həftə 20-25 milyon dollar daşıyan və bunu offşor şirkətlər üzərindən "yuyaraq", yenidən Azərbaycanın maliyyə sisteminə soxan bu dəstənin fəaliyyətinin bir ucu "Zamin Bank"a qədər gedib çıxır. Bilgili mənbələrin "Yeni Müsavat"a sızdırdığı məlumatlarda deyilir ki, Moskvada keçirilən əməliyyatdan sonra Azərbaycandan nağd şəkildə, kisələrdə milyonlarla dollar pulun daşınması nəinki dayanmayıb, hətta azacıq da olsa, səngiməyib. Qaynaqlarımız deyir ki, "Zamin Bank" vasitəsilə hər gün 10 milyonlarla pul Bakıdan MDB ölkələrinə, həmçinin Türkiyəyə və Dubaya daşınır. Bəzi mənbələrin iddiasına görə isə "Zamin Bank" vasitəsilə Azərbaycandan hər gün qaçaq yollarla ən azı 50 milyon dollar nağd vəsait xaricə aparılır".

***

Mətbuatın yazdıqlarına görə, MTN-in sabiq rəhbərliyi hava nəqliyyatı vasitəsilə indiyədək ölkədən qeyri-leqal yollarla 2 milyard pul çıxarıb. Bu xəbərlə 2012-ci ilin fevralında yazdıqlarımız arasında üst-üstə düşən məqamlar var. Amma hələlik bu istiqamətdə araşdırmalarımız bitmədiyindən əlavə bilgi verə bilmirik. Bu iddialarla bağlı "Yeni Müsavat" qəzeti rəhbərliyi "Zaminbank"a informasiya sorğusu yollamağı planlaşdırır.

***

Ən maraqlı və diqqət çəkən məqamlardan biri də MTN-in sabiq rəhbərliyinin illərlə davam edən qara pul əməliyyatına Mərkəzi Bankın rəhbərliyinin biganə qalmasıdır. Elman Rüstəmov vaxtında bu işlərlə bağlı ölkə rəhbərliyinə məlumat veribmi? Veribsə niyə heç bir tədbir görülməyib? Ola bilərmi ki, o, bu cür ciddi mövzuda nədənsə çəkinərək susqunluq göstərib? Şübhəsiz ki, bu suallara aydınlıq gətirmək istintaqın işidir. Yəqin müstəntiqlər bu epizod üzrə Mərkəzi Bank rəhbərliyinin ifadəsini alacaq.

Bir məsələni də xatırladaq ki, Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyev Eldar Mahmudovla quda olduqdan sonra xeyli güclənib. C.Hacıyev bu qohumluq əlaqəsindən istifadə edərək özünü ölkənin qeyri-rəsmi baş bankiri kimi aparıb. Bu barədə "Yeni Müsavat" bir neçə dəfə yazıb.

Mövzunu davam etdirəcəyik...

Yazıda adı çəkilən şəxslərin və qurumların mövqeyini qəzetdə dərc etməyə hazırıq.

❑ **İnformasiya şöbəsi**

---



## Ziya Məmmədovun "Yazırdınız ki, qaçıb" sözlərinə mediadan reaksiya gəldi

**Aynur Camalqızı:** "Belə istehzalardan mütləq nəticə çıxarmalıyıq"
**Qadir İbrahimli:** "Rişxənd obyektinə tuş gələsi insan elə onun özüdür"
**Aydın Quliyev:** "Qeyri-rəsmi mənbələrdən daxil olan xəbərləri dərc etməmişəm"

**Nəqliyyat naziri Ziya Məmmədovun Salyan, Biləsuvar və Neftçala rayonlarından olan vətəndaşlarla görüşü zamanı jurnalistlərə zarafatla dediyi sözlər cəmiyyət və mətbuatda geniş müzakirələrə səbəb olub. Z.Məmmədov tədbirdə iştirak edən qələm əhli ilə "Yazırdınız ki, qaçıb!" deyərək zarafatlaşıb.**

Nəqliyyat naziri bu sözləri səbəbsiz deməyib. Zaman-zaman onun barəsində mətbuatda xaricə qaçması ilə bağlı xəbərlər dərc olunub. Buna səbəb də onun uzun müddət müalicə adı ilə xaricdə olması idi. Nəqliyyat Nazirliyi bu barədə açıqlama verərək, oktyabrın 23-də Z.Məmmədovun müalicədən qayıdacağını bildirmişdi. Doğrudur, həmin ərəfədə nazir xaricdən qayıtdı. Lakin bu onun mətbuat tərəfindən qaçma iddiasının qarşısını ala bilmədi.

Media kapitanlarından nazirin mətbuat rişxəndlə nümayəndələrinə dediyi sözlərə münasibət aldıq.

"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı bildirdi ki, nazirin rişxəndlə dediyi sözlərə səbəb jurnalistikada qeyri-peşəkar insanların toplaşmasıdır: "O yerdə ki, peşəkarlıq var, orada rişxənd eşitmək mümkün deyil. Peşəkarlarla daim hesablaşırlar. Düşünürəm ki, Azərbaycan mətbuatında təmsil olunan, mətbuatı yönəldən, mətbuata rəhbərlik edən insanlar hər eşitdiyi xəbəri, şayiəni məlumat kimi cəmiyyətə ünvanlamağın düzgün olmadığını anlamalıdırlar. Xəbərin əlifbası odur ki, o, bir yox, bir neçə mənbədən təsdiqini tapmalıdır. Azərbaycanda bunun çətin olduğunu başa düşürəm. Xəbər almaq, informasiya əldə etmək həddindən artıq çətindir. Jurnalistlər məcbur olub təsdiqini tapmamış xəbərdən istifadə etməyə məcbur olurlar. Mümkün qədər təsdiqlənməmiş, rəsmi mövqe olmayan xəbərlərdən kənarda durmaq lazımdır. O zaman heç bir məmur heç bir jurnalistə istehza edə bilməz. Hesab edirəm ki, belə istehzalardan mütləq nəticə çıxarmalıyıq".

İstiqlal.az saytının baş redaktoru Qadir İbrahimli nəqliyyat nazirinin ölkədən qaçması xəbərini ciddi qaynaqlardan aldıqlarını qeyd etdi: "İndiyə qədər Ziya Məmmədovun praktikasında olmamışdı ki, uzunmüddətli məzuniyyətə getsin. Bunu birmənalı olaraq əksər mətbuat orqanları qeyd edirdilər. Bir çox proseslər Ziya Məmmədov məzuniyyətdə olduğu ərəfədə baş verdi ki, bu həqiqətən nəqliyyat nazirinin ölkə başçısının qara siyahısında olduğunun təsdiqlədi. Onun bir sıra səlahiyyətləri alınıb başqa qurumlara verildi. Rəsmi qərarlar onu göstərdi ki, nəqliyyat nazirinin "vurulması" prosesi gedir. Həmin ərəfədə Ziya Məmmədovun məzuniyyət adı ilə ölkəni tərk etməsi bu qənaətlərin ortaya çıxmasına səbəb oldu. Bunlar kifayət qədər ciddi mənbələrdən alınmış məlumatlar idi. Hesab edirəm ki, hazırda rişxənd obyektinə tuş gələsi insan elə nazirin özüdür. Nəqliyyat Nazirliyi, demək olar ki, səlahiyyətləri alınmış, əvvəlki funksiyalarını itirmiş bir qurumdur. O, indiyə qədər İsveçrədə müalicədə olub. Eşitməmişik ki, hansısa məmur, iş adamı müalicə adı ilə İsveçrəyə getsin. Müalicə üçün adətən İsrail, Almaniya və bu kimi başqa ölkələrə üz tuturlar. Dünyanın səhiyyə cəhətdən inkişaf etmiş ölkələri sırasında İsveçrə yoxdur. Ziya Məmmədovun İsveçrəyə "müalicəyə getməsi" müəyyən şübhələrə yol açırdı. Onun bu ölkəyə getməsi təsadüfi deyildi. Bildiyiniz kimi, Azərbaycan məmurlarının əksəriyyətinin pulları İsveçrə banklarındadır. Çox güman ki, Ziya Məmmədov xaricdə yatırdığı vəsaitləri ölkəyə geri qaytarmaq tapşırığı əsasında gedib. Onun müəmmalı səfərini bu cür qiymətləndirirəm. Dünyanın səhiyyə cəhətdən inkişaf etmiş ölkələri sırasında İsveçrə yoxdur".

"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev qeyri-rəsmi mənbələrdən daxil olan xəbərləri çap etmədiyini söylədi: "Açığı, indiyə qədər nəinki Ziya Məmmədov, digər məmurlar barədə də qeyri-rəsmi mənbələrdən daxil olan xəbərləri dərc etməmişəm. Ən azı son 6-7 ildə bu praktika ilə işləməmişəm. Əgər daxil olan məlumatlar etibarlı sübutlarla yerinə yetirilmirsə, qeyri-rəsmi mənbələrdən daxil olursa, heç vaxt səhifəyə qoymuram. Bundan sonra da bu istiqamətdə işlərimizi davam etdirəcəyik. Çalışıram ki, real olan, tutarlı faktlara söykənən məlumatlara daha çox yer verim".

❑ **Cavanşir ABBASLI**



# Bir ümid yağışı...

**Hüseynbala SƏLİMOV**

**Bu il qışın sərt keçəcəyini deyirlər. Dünyanın başqa ölkələrində insanlar buna bir təbiət və fəsil mənası verərkən biz bunda həm də siyasi, ictimai, son vaxtlar isə eləcə də iqtisadi motivlər aramalı oluruq. Hər şey bir tərəfə, gələn il ölkənin maliyyə-iqtisadi durumunun necə olacağını heç kim, o cümlədən də bu işə cavabdeh olan hökumət özü də bilmir...**

Amma bir məsələ var ki, iqtisadi çətinliklər ölkəyə, necə deyərlər, selektiv və differensial yanaşmırlar, onlar hamı üçün eyni dərəcədə problemdir. Amma ki, siyasi problemlər cəmiyyətin yalnız bir kəsimi üçün aktualdır...

Bəli, növbəti ildə artıq yeni parlament işə başlayacaq. Təbii ki, əgər ona yeni demək mümkün olacaqsa. Və biz hamımız avtoritar siyasi sistemin daha bir və bəlkə də daha çətin həlqəsini yaşamalı olacağıq. Bu sistemin yenə də cabalamasının şahidi olacaq, onun özəl, özünəməxsus problemlərilə vuruşmalı və çarpışmalı olacağıq...

Bir neçə dəfə yazmışıq ki, avtoritar sistemin bütün resurslarından istifadə edilib bu ölkədə. Artıq o, tükənib, lap köhnə sovet maşını kimidir. Amma onu yenisi ilə əvəz etməyi düşünmürlər, köhnə avtomobilin sükanını əlində saxlayanlar onu hələ də həyatın daşlı-kəsəkli yolları ilə qovmaqdadırlar. Bizi narahat edən odur ki, avtroitar siyasi sistemin ağırlığını daha çox azadlıq istəyən adamlar hiss edirlər. Başqaları iqtisadi azadlıqların az olmasından, bir çox hallarda inhisarçılıqdan və korrupsiyadan gileylənə bilərlər. Amma siyasi mənsubiyyəti olanlar bütün bunları bir vətəndaş kimi yaşamaqla bahəm həm də ölkə hüdudlarında sanki rahat nəfəs ala bilmirlər...

Bəli, ümumi halda bu qədər... Konkretliyə gəldikdə isə 2015-ci ildə yaşaya - yaşaya 1937-ci ili daha çox anlayırıq. Arada 80 ilə qədər vaxt fərqi var. Arada çox böyük siyasi fərq var - təbii ki, ilk baxışda...

Amma bəzən özün də çaşıb qalırsan ki, əcəba, görən təqvimdə hansı ildir? Bəlkə də numerologiya ilə bir qədər ciddi məşğul olanlar burada daha nələrsə tapa bilərlər. Amma məsələ bunda deyil. İndi ezoterik təlimlərə varmağın məqamı və vaxtı deyil...

Əsas bilirsiniz nədir? Ötən əsrin 30-cu illərində də böyük əksəriyyət "xoşbəxt" idi...

Gecələr kiminsə qapısını qara rəngli maşınlar kəsdirəndə belə onlar "xoşbəxt" olmaqda davam edirdilər. Başqalarının sorağı hətta uzaq Sibirdən gələndə belə onlar yenə də "xoşbəxt" olmaqda davam edirdilər. Onda da evlər tikilir və parklar salınırdı-qurur duymaq və özünü "xoşbəxt" saymaq üçün əsas çox idi.

İndi də belədir... Son 24 ildə ölkədə baş verən bu qədər dəyişikliyi görməmək heç mümkündürmü? Təzə binalar, təp-təzə parklar...

Amma bunlar hamı üçün deyil. Amma bunlara hamının girişi yoxdur... Bunlar "böyük əksəriyyət" və yaxud da ki, bizim dildə deyildiyi kimi, xalq üçündür...

Təəssüf ki, heç də hamını bu "böyük əksəriyyət"in sırasına aid etmirlər. Bunu etiraf etmək ağır olsa da, başqa yol yox-1937-ci ildə də xalq və bir də onun "düşmənləri" vardı...

Elə indi də bu qəliblərsiz keçinmirlər. İndi də bu ölkədə, vaxtilə 37- ni yaşayan çox böyük ölkənin indiki kiçik hissəsində, "xain" titulu almaq elə də çətin deyil - yetər ki, "böyük əksəriyyət"dən azacıq artıq azadlıq tələb edəsən...

Dünyada demokratiyaları da iki qrupa bölürlər. Birinə totalitar, digərinə isə liberal demokratiya deyirlər. Yox, fikriniz buna da getməsin. Əgər bu ölkədə mütləq çoxluq özünü həqiqətən azad və söz sahibi hesab etsəydi bundan da xoşhal olardıq - fəqət, buralara hətta totalitar demokratiya da demək çətin və həm də yanlışlıq olardı...

Ona görə də bütün bənzətmələr qüsurludur. Buranın adı sadəcə, avtoritar bir ölkədir. Bunu qəbul etmək və nəticə çıxarmaq lazımdır...

Qərəz, deyirlər ki, qış sərt keçəcək. İndi bu hansı mənada olacaq, kimin üçün olacaq, bunları əvvəldə yazmağa və yozmağa cəhd etdik...

Adam bu halda nə istəyir? Köçüb başqa bir yerə getməkmi? Təbii ki, yox. Bu ölkədə istədiyin bir payız yağışını pəncərədən seyr etməkdir...

Bu ölkəni yalnız yağışlar yuyub təmizləyə bilir. Bəzən deyirlər ki, guya yağış bu ölkəni palçığa bulayır, amma bu, düzgün deyil...

Ona görə də sərt qış müjdəsinin müqabilində bir yağış arzusundayıq. Elə bir yağış ki, bu ölkənin yazılarını yuya bilsin...

**Müsavat Partiyası 25 oktyabrda Yasamal rayonunda yerləşən "Məhsul" stadionunda seçki mitinqi keçirib. Mitinqin qətnaməsində siyasi məhbusların azad edilməsi, azad və ədalətli seçkilərin keçirilməsi üçün normal mühit yaradılması, seçki qanunvericiliyində əsaslı dəyişikliklər edilməsi, ilk növbədə seçki komissiyalarının müstəqilliyinin təmin edilməsi, bərabərhüquqlu təbliğat imkanlarının təmini, xüsusilə ictimai diskussiyaların təşkil edilməsi məqsədilə pulsuz efir vaxtının ayrılması, seçki kampaniyası dövründə Müsavat Partiyasından olan və digər namizədlərin imzatoplama, eyni zamanda təbliğat kampaniyasına qeyri-qanuni müdaxilə edən yerli hakimiyyət və icra orqanlarının nümayəndələri barədə ciddi tədbirlərin görülməsi, bütün bu və digər zəruri tədbirlərin görülməsi üçün isə parlament seçkilərinin dayandırılaraq dörd ay sonraya təyin olunması tələbi irəli sürülüb.**

# Müsavatın seçkilərin 4 ay sonra keçirilməsi tələbinə reaksiyalar gəldi



**Siyavuş Novruzov:** "Haradan bilirlər ki, seçki demokratik keçirilməyəcək? Münəccimdilər?"



**Pənah Hüseyn:** "1 noyabrda ölkədə seçkilər olacaq"



**Mirmahmud Mirəlioğlu:** "Onların tələbləri, qaldırdığı məsələ haqlıdır"



**Sərdar Cəlaloğlu:** "Müsavat əslində bir az yumşaq deyir"



**Əli Orucov:** "Çox ehtimal ki, 1 noyabrda formalaşdırılacaq parlamentin ömrü 5 il olmayacaq"

Seçkiyə bir həftə qalmış Müsavat Partiyasının belə bir tələb irəli sürməsinə hakim Yeni Azərbaycan Partiyasından münasibət bildirilib. **YAP icra katibinin müavini Siyavuş Novruzov** report.az-a açıqlamasında deyib ki, Müsavat namizədlərinin seçkidə uduzacaqlarını hiss etdiyi üçün indidən belə tələblər irəli sürüb: "Müsavat Partiyasının mitinqini müşahidə etdik. Orada cəmi 300 adam iştirak edirdi. Həmin adamlar da çıxış edənlərin qohum-əqrəbası idi. Müsavat Partiyasının deputatlığa namizədlərinin arxasında 100 nəfər yoxdur. Yəni namizədlərin hər biri özü ilə 100-150 nəfər gətirsəydi, normal mitinq olardı. Bütün bunlar göstərir ki, partiyanın namizədlərinin seçicilər arasında nüfuzu, dəstəyi yoxdur. Onlar bunu hiss etdiklərindən indidən seçki haqqında mənfi rəy yaratmağa çalışırlar. Müsavat Partiyası parlament seçkisində uğur qazana bilməyəcək və indidən seçkilərin nəticələrinə kölgə salmağa cəhd edir. Haradan bilirlər ki, seçki demokratik keçirilməyəcək? Münəccimdilər? Tələb edirlər ki, seçki 4 aydan sonra keçirilsin, bu müddətdən sonra nə olacaq ki? Hesab edirəm ki, onların dedikləri bəhanədir, çünki bilirlər ki, heç kəs onların namizədlərinə səs verməyəcək".

**Müsavatın tələbinə müxalifət partiyalarının münasibətinə gəlincə, AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"a bildirdi ki, istənilən qanuni tələbi irəli sürmək hər bir partiyanın, o cümlədən Müsavatın hüququdur. İrəli sürülən tələbə əməl edib-eləməmək isə hakimiyyətin üzərinə düşür:** "Prinsip etibarilə seçkilərin keçirilməsi, təbliğat-təşviqat kampaniyasının təşkili ilə bağlı, xüsusən də hakimiyyətdən olmayan namizədlərin təşviqatının bərabərliyi baxımından vəziyyət yaxşı deyil. Söhbət xüsusən Bakı şəhərindəki durumdan gedir. Televiziyada namizədlərin debatlarının ləğv edilməsi seçki prosesində özünü xüsusi mənfi göstərir. Şəxsən mənim namizəd olduğum seçki dairəsində, sözün doğrusu, bir qədər fərqli situasiyadır. Yəni biz istər fərdi, istərsə də kütləvi görüşlər keçiririk. Sözümüzü seçicilərə bu şəkildə çatdırırıq. Prinsip etibarilə yəqin ki, 1 noyabrda ölkədə seçkilər olacaq. Hesab edirəm ki, Müsavatın mitinqində qəbul olunan qətnamədəki bir çox əsaslar haqlıdır. Seçkinin 4 ay sonraya keçirilməsinin hüquqi baxımdan mümkün olub-olmaması başqa məsələdir".

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə bildirdi ki, seçkinin bu şəkildə keçiriləcəyi əvvəldən bəlli idi:** "Biz bilirdik ki, belə olacaq. Müsavatın qətnaməsindəki tələblərin də heç biri yerinə yetirilməyəcək. Seçkinin demokratik keçirilməsi istəyi olmadığı halda 4 ay sonra keçirilsə belə, indiki kimi olacaq. Müsavat da bunu bilir. Amma hər bir halda onların tələbləri, qaldırdığı məsələ haqlıdır".

**ADP sədri Sərdar Cəlaloğlu öncə bəyan etdi ki, dünya və Azərbaycan çox ciddi böhranla üz-üzədir. Azərbaycanın bu böhrandan çıxması üçün hakimiyyət cəmiyyətin ən ağıllı potensialını parlamentə toplamalı idi:** "Təəssüf ki, iqtidar bunu etmək əvəzinə yenə də əvvəlki metodlarla formal seçki keçirir və ölkənin böhrandan xilas olmasına yardım edə bilmək imkanından uzaq formal parlament formalaşdırılır. Parlament seçkilərinin indiki şəkildə keçməsi dövlətimiz və xalqımız üçün çox mənfi sürprizlər gətirəcək. Ona görə də ölkədə çox təcili siyasi və iqtisadi islahatlar aparılmalıdır. Bu islahatlara həqiqi demokratik parlament seçkilərinin keçirilməsi də daxil olmalıdır. Əks halda, ölkə qarşıdan gələn dəhşətli böhrandan yaxa qurtara bilməyəcək, ölkə defolt vəziyyətinə düşəcək, çox təhlükəli proseslər baş verəcək. Odur ki, Müsavat əslində bir az yumşaq deyir".

AMİP katibi Əli Orucov bildirdi ki, ölkədə demokratik seçki mühitinin olmaması ilə bağlı Müsavatın bəyanatındakı fikirlər reallığı əks etdirir: "Doğrudan da seçki prosesinin bütünlüklə yekunlaşmasına sayılı günlər qalmasına baxmayaraq, ölkədə seçki mühiti hiss olunmur. Bunun əsas səbəblərindən biri ondan ibarətdir ki, cəmiyyətdə ümumiyyətlə seçkilərə və seçkili orqanlara inam yoxdur. Hər kəs indidən parlamentə kimlərə deputat mandatı veriləcəyini bilir. Ona görə də heç kəs Prezident Administrasiyasında nəticəsi qabaqcadan bəlirlənən prosesin iştirakçısı olmağa həvəs göstərmir. Müsavatın mitinqində səsləndirilən bəyanat reallığı əks etdirir. Həqiqətən də ölkədə nə seçki mühiti var, nə normal seçki. Namizədlərin təbliğat-təşviqat kampaniyasına imkan yaradılmayıb. Televiziyalar cəmiyyətin üzünə qapalıdır. Bir müddət əvvəl AMİP olaraq tələb etmişdik ki, namizədlərə dövlət büdcəsindən maliyyələşən AzTV və İTV-də efir vaxtı verilsin. Bu, seçki qanunvericiliyində, eləcə də «İTV haqqında» Qanunda təsbit olunub. YAP-ın efir vaxtından imtina etməsi heç də o demək deyil ki, seçkilərdə iştirak edən digər siyasi qüvvələr də, bundan yararlanmalıdır. Hər şeyi YAP-ın istək və arzularına bağlamaq doğru deyil.

Ən pis qanunla ən yaxşı seçki keçirmək mümkündür. Hətta siyasi iradə olsa, özlərinin qəbul etdikləri mürtəce qanunla da normal seçki keçirmək olar. Problem Seçki Məcəlləsinin dəyişdirilməsi deyil, seçkilərə olan münasibətin dəyişdirilməsindədir.

Təbii ki, biz də çox istərdik siyasi məhbuslar azad edilsinlər və onların da bu proseslərdə aktiv iştirakına imkan tanınsın. Lakin hakimiyyətin bu tələblərə məhəl qoyacaqları o qədər də inandırıcı görünmür. Müşahidələr göstərir ki, iqtidar çox narahatdır və seçkiləri də səssiz-səmirsiz, tələm-tələsik yekunlaşdırmaq istəyir. Amma ölkədə, regionda və dünyada baş verən sürətli proseslər yeni seçkilərin 4-5 aydan sonra keçirilmə ehtimalını günü-gündən reallaşdırmaqdadır. Çox ehtimal ki, 1 noyabrda formalaşdırılacaq parlamentin ömrü 5 il olmayacaq".

**E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 238 (6266) 27 oktyabr 2015





# 35 saylı Xətai 3-cü seçki dairəsinin seçiciləri İqbal Ağa-zadədən başqa namizəd tanımır




**35 saylı Xətai üçüncü seçki dairəsindən deputatlığa namizəd Ümid Partiyasının sədri, millət vəkili Ağa-zadə İqbal Fehruz oğlu seçiciləri ilə görüşlərini davam etdirir. Namizəd oktyabrın 25-də İ.İsmayılov küçəsi 44; 46; 48-ci ,Tusi küçəsi 22; 24; 26-cı binada və Naximov qəsəbəsində seçiciləri ilə görüşdü. Məhəllələrarası görüşdə çoxlu sayda seçici iştirak etdi.**

İ.Ağa-zadə seçicilərin suallarını cavablandırdı, onların problemlərini dinlədi, parlamentdə olduğu müddətdə gördüyü işlərdən, bundan sonra görəcəyi işlərdən danışdı. Etimad göstərildiyi halda, bundan sonra da seçicilərini layiq olduğu səviyyədə təmsil etməyə çalışacağını bildirdi.

Namizədin seçiciləri ilə məhəllələrarası görüşləri davam edir.










**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Sürpriz xoşbəxtlik

**Zamin HACI**
zaminhaci@gmail.com

**Bəh-bəh... Adama elə gəlir hansısa Avropa ölkəsində yaşayırıq. O deyilən "Yeni Azərbaycan" gözləmədiyimiz anda qarşımıza çıxmışdır. Hər gün, hər yerdən xalqa xidmət sorağı gəlməkdədir. İki göz tamaşa eləməyə bəs etmir. Dörd göz lazımdır. Mən elə buna görə dördgöz olmuşam. Bəlkə də bugünlərdə rəmzi yubileyi qeyd olunan "Geriyə, gələcəyə" filmindəki zaman maşınına minərək gələcəyə uçmuşuq.**

Milli təhlükəsizlik nazirinin vəzifələrini icra edən adamın velosiped sürdüyü yerdə fotosu yayıldı. Daha sonra onun köhnə iş yerindəki mətbuat katibi belə bir açıqlama verdi: "Mədət müəllim facebook profilini bağlamağa məcbur oldu, çünki zəhmətkeşlərimiz minlərlə məktub yazıb onu təbrik edirdilər, o isə hamısına cavab verə bilmirdi. Dünən tək canına 200 məktuba "Ok" cavabı yazmış, 3500 statusu "layk" eləmiş və sənətsevərlərimiz üçün də "yutub"dan 50 mahnı paylaşmışdır. Lakin gördü hamıya cavab verməyə imkan yoxdur, xalqın məktublarını cavabsız qoymaq isə xalqa qarşı hörmətsizlik sayıla bilər, bu baxımdan profili bağladı. Buna görə hamınızdan üzr istəyir".

Dəhşətdir. Adam lap ağlamaq istəyir. Sevinc göz yaşlarıdır, təbii ki. Bizi bu cür xoşbəxt günlərə yetirən hökumətə Zərdab qaçqınları, Masallı köçkünləri, Samux didərginləri adından dərin minnətdarlığımı bildirirəm. Heyf, Habil müəllim bu günləri görmədi.

MTN-də gündə bir generalı işdən çıxarırlar. Orda general çıxarmaq sanarsan avtobus sürücüsünü marşrutdan çıxarmağa dönmüşdür.

Vergilər Nazirliyində idarə rəislərini sözün əsl mənasında dənləyirlər. Artıq dükan yoxlamağa adam tapılmır, dükançılar özləri-özlərini yoxlayıb xalq qarşısında hesabat verirlər. Hərçənd dövlət rəhbərliyinin yoxlamaları qadağan edən sərəncamından sonra buna ehtiyac da yoxdur. Görünür, dükançılar inersiya, ətalət nəticəsində yoxlamaları davam etdirirlər. Tezliklə bunun sonu çatacaqdır.

Polis naziri də hər gün bir neçə şöbə, rayon rəisini işdən çıxarır. Bir rəisi isə bölmədə dustağın döyülməsi və ölməsi siqnalına görə qovdu! İnanılmazdır. Kimin ağlına gələrdi? Halbuki, biz öyrəşmişik polis insanın valideyni kimi bir şeydir, valideyn vuran yerdə gül bitər, heç vaxt buna görə rəis qovulmazdı. İndi isə qovurlar. Sanki bura Parisdir, Londondur, Berlindir.

Kənd təsərrüfatı naziri kəndə getmişdi! Televizorda özüm baxdım. Kəndlilərə deyirdi ki, baytarlarım sizin inəkləri yoxlayırmı, əgər yoxlamasalar xəbər verin, onlara mal iynəsi vuracağam.

Nəqliyyat naziri Neftçalada vətəndaşları qəbul edirdi. Doğrudur, Neftçalanın hansı nəqliyyat probleminin olması bizə məlum deyil və yaxşı olardı nəqliyyat naziri çökən Bakı avtovağzalında qəbul keçirsin. Bəlkə də elə zənn edib Neftçalada neft çalası var, satıb nazirliyin söküklərini yamayacaqdır. Hər halda, uğurlu addımdır - bundan qabaq nəqliyyat naziri ancaq İsveçrəyə gedirdi.

Bir deputatlığa namizəd Yasamalda 10 sutka həbs cəzası almış şəxsi azad etdirdi. Təsəvvür edin! Halbuki, qabaq BMT sədri gəlsə də onu buraxmazdılar, nəinki deputatxana spikeri. İndi isə namizəd adam buraxdırır! Tüküm biz-biz oldu. Bəziləri isə ürpəşdi.

Dövlət rəhbərliyi öz pulundan hər gün bazara nə qədər dollar atır ki, manat sabit qalsın, qiymətlər havaya uçub zəhmətkeşi incitməsin. Hər gün hakimiyyətin onlarla sadiq kadrları uca millətin yolunda qurban kəsilir, şaqqalanıb darvazadan asılır. Beş-on nəfər siyasi dustaq var, onları əfv sərəncamı da verilsə kompozisiya tamamlanardı, minnətdarlığımız daha da aşıb-daşardı. Ümid edirəm, nəinki ümid edirəm, hətta əminəm siyasi rəhbərlikdə buna da qüdrət çatacaqdır. Yeni Azərbaycanın çiçəklənməsini qoy həmin yolunu azmış gənclərimiz də öz gözləri ilə görsünlər, türmədən baxmasınlar.

İntəhası, adam qorxur ki, bu gedişlə bizdə kişilərin kişilərlə evlənməsinə də icazə veriləcəkdir.

# Abbas Abbasovun "əfv" məktubu...

## Dağıstan prezidentinin Azərbaycana səfərinin şok pərdəarxası

**Ötən həftə Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun Azərbaycana gəlişi və onun prezident İlham Əliyev tərəfindən qəbulu müəyyən müzakirələrə yol açıb.**



Görüşlə bağlı rəsmi xəbərdə bildirilirdi ki, prezidentlər arasındakı görüşdə ölkəmizlə Dağıstan Respublikası arasında əlaqələrin region üçün, bütövlükdə Azərbaycan-Rusiya münasibətlərinin inkişafı baxımından çox əhəmiyyətli olduğunu qeyd edən prezident bildirib ki, dövlətlərarası ikitərəfli münasibətlər möhkəmləndikcə, Azərbaycan-Dağıstan ənənəvi əlaqələri daha da güclənir. Ramazan Abdulatipov və bütün dağıstanlıları Dərbənd şəhərinin iki min illik yubileyinin yüksək səviyyədə keçirilməsi münasibətilə təbrik edən dövlət başçısı bunun region üçün çox böyük hadisə olduğunu deyib.

İlham Əliyev Əziz Əliyevə Dağıstanda abidə ucaldılmasına dair qəbul edilən qərara görə Ramazan Abdulatipova minnətdarlığını bildirib. Azərbaycanla Rusiya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlət başçısı Rusiya Federasiyasının prezidenti Vladimir Putinin iyunda ölkəmizə səfəri zamanı da bunu bir daha təsdiqlədiyini diqqətə çatdırıb...

**Dağıstan rəhbəri Azərbaycana qeyri-rəsmi səfər etdiyini deyib:** "Səfərimin məqsədi müalicə almaqdır. Naftalan şəhərində müalicə olunacağam. Səfər çərçivəsində Gəncə şəhər Heydər Əliyev Park kompleksində oldum. Çox möhtəşəm mərkəzdir. Mən Heydər Əliyevi həmişə özümə müəllim hesab etmişəm".

Elə R.Abdulatipovun Azərbaycana işgüzar səfərə deyil, qeyri-rəsmi şəkildə, konkretləşdirsək, müalicə məqsədilə gəldiyini deməsi bir sıra fərqli proqnozlara və yoğumlara stimul verib. Xatırladaq ki, R.Abdulatipov da 2013-cü il prezident seçkilərindən öncə yaradılan "Milyarderlər klubu"nun üzvlərindən idi. Sonradan o, Dağıstan rəhbərliyinə göndərildi və klubun aktiv üzvləri siyahısından çıxdı. Lakin Abdulatipovun Azərbaycan baş nazirinin sabiq birinci müavini, "Milyarderlər ittifaqı"nın aparıcı üzvü Abbas Abbasovla çox yaxın münasibətdə olduğu bəllidir. Bu mənada A.Abbasovun aylardır həbsdə saxlanılan qardaşı Nadir Abbasovun məhz bu ərəfədə, Abdualtipovun Azərbaycan prezidenti ilə görüşünün səhəri günü azadlığa buraxılması diqqət çəkir. 10 milyon manat borca görə həbsdə saxlanılan N.Abbasovun məhv həmin günü borcu ödədiyi elə də inandırıcı görünmür. Hesab olunur ki, onun azadlığında Dağıstan rəhbərinin prezidentdən xahişi həlledici rol oynayıb. Xatırladaq ki, Nadir Abbasov bu il iyunun 26-da Beynəlxalq Bank və qaytarılmayan kreditlər işi ilə bağlı DİN-in Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən saxlanılmışdı.

### Qabil Hüseynli: "Abbas Abbasov tövbə edib prezidentin bayrağının altına keçəcəksə..."



### Elxan Şahinoğlu: "Bu, o demək deyil ki, rəsmi Bakı Abbas Abbasovu bağışlayıb"

Bu arada başqa bir məlumat da yayılıb. Məlumata görə, A.Abbasov bir neçə gün əvvəl Azərbaycan prezidenti İlham Əliyevə tövbə məktubu yazaraq bağışlanmasını xahiş edib. "Məlumata görə, A.Abbasov dövlət başçısını əmin edib ki, bundan sonra o heç vaxt və heç bir halda ictimai və siyasi fəaliyyətlə məşğul olmayacaq, ələlxüsus da Azərbaycan əleyhinə yönəlik siyasi oyunlara qoşulmayacaq"-xəbərdə bildirilir. Hətta R.Abdulatipovun səfəri zamanı əfv məktubunun da müzakirə mövzusu olması istisna olunmur. Lakin məlumata görə, Azərbaycan prezidenti hələlik əfv məktubunun üstünü yazmağa tələsmir.

Məsələ ilə bağlı A.Abbasovun deputat oğlu Aydın Abbasovun rəyini öyrənə bilməsək də, ekspertlər situasiyanı kifayət qədər maraqlı formada şərh etdilər.

**Politoloq Qabil Hüseynli güman etmir ki, görüş təkcə Abbas Abbasobvun qardaşının azad olunması ilə bağlı olub:** "Bildiyimə görə, Abbas Abbasovun qardaşının həbsi kredit borcları ilə əlaqədar idi. Yəqin o borcları da qaytarılıb və həbsdən azad olunub. Əlbəttə, burada xahiş məqamı da ola bilər. Ola bilsin ki, Abdulatipov "həm ziyarət, həm ticarət" məqsədilə gəlib. Yəni həm Abbas Abbasovun qardaşının azadlığını xahiş edib, həm də müalicə almaq üçün gəlib. Deyilənə görə, onda güclü revatizm xəstəliyi var, artıq ayaqlarında ciddi problemlər yaranıb. Bu səbəbdən də Naftalanda vanna qəbul etməyi həkimlər ona məsləhət görüb". Q.Hüseynli Dağıstan rəhbərinin A.Abbasovun əfv olunması xahişini etməsini də mümkün saydı: "Bu, mümkün məsələdir. Abbas Abbasov tövbə edib prezidentin bayrağının altına keçəcəksə, o halda prezidentin onun əfvini qəbul edəcəyi ehtimalı, məncə, zəif deyil. Çünki Abbas Abbasov da bölgənin ağsaqqalıdır və onun hakimiyyətlə münasibətləri qaydaya düşərsə, ölkə bundan xeyir görər, nəinki ziyan. Əgər onun qardaşı həbsdən buraxılıbsa, münasibətlərin bərpası istiqamətində addımlar atıla bilər. Onun prezidentlə münasibətləri qaydaya düşərsə, onda Abbas Abbasov hətta gəlib ölkəyə yatırım qoya bilər. Ən azından onun ölkəyə gəlib-getməsinə "yaşıl işıq" yandırılması ümumi işin faydasına olar".

**Q.Hüseynli Abdulatibovu Putinin yanındakı mühüm fiqurlardan biri saymaqla yanaşı, onu "ciddi körpü" adlandırdı:** "Abdulatipovla Abbas Abbasov arasında sıx əlaqələr var. Onların hətta Dərbənddə birgə sərmayə yatırmaq istiqamətində çalışmaları davam etdirdiyi barədə məlumatlar var. Bu səbəbdən onları aralarında formalaşmış işgüzar əlaqələr birləşdirir. Bu mənada Abdulatipov Abbasovla bağlı məsələnin nizama salınmasında əhəmiyyətli rol oynaya bilər. Ümumilikdə, Abbas Abbasovun Azərbaycanda olması hakimiyyətə də, millətə də, dövlətə də xeyirlidir".

**Politoloq Elxan Şahinoğlu isə xatırladtı ki, prezident Əliyevlə Dağıstan prezidentinin görüşündə Azərbaycanla Dağıstan arasında iqtisadi əlaqələrdən danışılıb:** "Məsələ burasındadır ki, Ramazan Abdulatipov Azərbaycanın Dağıstana investisiya qoymasını istəyir. Rəsmi Bakı isə verdiyi vədlərə baxmayaraq, Dağıstana böyük investisiya layihələri həyata keçirməyə tələsmir. Bunun obyektiv səbəbləri var. Birincisi, Dağıstan Rusiyanın ən korrupsiyalaşmış regionudur, burada iqtisadi layihə həyata keçirmək çətindir. İkincisi, Dağıstan həm də Rusiyanın ən təhlükəli regionudur, terrorçuların fəallığı hiss olunur. Ona görə də rəsmi Bakı Dağıstanla iqtisadi əlaqələri, birgə layihələri reallaşdırmağa tələsmir. Bunun əvəzinə rəsmi Bakı Dərbənd şəhərinin inkişafına və təmirinə müəyyən qədər maliyyə xərcləyir. Dərbənd qədim Azərbaycan şəhəridir və əhalinin əksər hissəsi azərbaycanlılardır. Ona görə də Heydər Əliyev Fondu vasitəsilə Dərbəddə humanitar layihələr reallaşdırılır". **E.Şahinoğlunun fikrincə, rəsmi Bakı Abdulatipovdan həm də onun Abbas Abbasovla əlaqəsinə görə ehtiyat edir:** "Moskvada yaradılan azərbaycanlı "Milyarderlər klubu"na Ramazan Abdualtipovun necə və niyə daxil olması bu günə qədər qaranlıq qalır. Aydın idi ki, Rusiyanın hakim dairələrindəki "gözəgörünməz qüvvələr" Azərbaycan hakimiyyətinə qarşı ssenarilərdə Abbas Abbasova Ramazan Abdulatipovu da qoşublar. Ancaq Azərbaycanda prezident seçkisi öncəsi Rusiya prezidenti Vladimir Putin Bakıya gəldi və İlham Əliyevlə görüşdü. Bundan sonra Moskvada hakimiyyətə qarşı hazırlanan bu plana "stop" deyildi. Bu baxımdan Abbas Abbasov Azərbaycan hakimiyyəti üçün əvvəlki kimi təhlükəli fiqur statusunu itirib. Ona görə də onun qardaşını uzun müddət həbsdə saxlamasını lazım bilinmədi. Ancaq bu o demək deyil ki, rəsmi Bakı Abbas Abbasovu bağışlayıb. Bağışlasaydı, oğlu millət vəkilliyinə namizədliyini irəli sürərdi".

❑ **Cavid TURAN**

# Rəsmi Bakıdan seçki ərəfəsi Qərbə iki mühüm mesaj

**MTN-də baş verən proseslər sayılı günlər qalmış 1 noyabr parlament seçkilərini tam arxa plana keçirib. Məlumdur ki, Avropa Parlamentinin seçkiləri boykota çağırışın da əksini tapdığı qətnaməsindən sonra ATƏT 1 noyabr seçkilərinə müşahidəçi göndərə biləcəyini bəyanlamışdı, həmçinin konkret say da açıqlamışdı. Rəsmi Bakı isə ATƏT-in Azərbaycana 125 seçki dairəsi üzrə 400 nəfər qısa və uzunmüddətli müşahidəçinin göndərilməsinə etiraz etdi və nəticədə Avropanın ən böyük qurumu seçkilərə müşahidəçi göndərməməyə qərar verdi.**



# Oqtay Əsədovdan sensasion Rusiya açıqlaması

## Prezident Administrasiyasının rəhbəri Azərbaycan hakimiyyətinin mövqeyini açıqlayan məqalə yazdı: "Prezidentin yürütdüyü siyasət ölkəmizi qeyri-sabit görmək istəyən Qərb dairələrini qıcıqlandırır"; spiker isə Azərbaycanın Rusiya ilə yaxınlaşdığı üçün Qərbin təzyiqlərinə məruz qaldığını dedi

Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyi ATƏT-in Daimi Şurasının ötən həftə keçirilən iclasında təşkilatın Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) mandatını pozması məsələsini qaldırıb. Daimi nümayəndəliyin bəyanatında bildirilib ki, nümayəndəlik səlahiyyətini aşaraq noyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərinə müşahidəçi missiyası göndərməkdən imtina etmiş DTİHB ilə yaranmış vəziyyətdən çıxış üçün intensiv danışıqlar aparıb.

Tam tərkibli müşahidəçi missiyasının bərpa edilməsinin bu mərhələdə mümkünsüz ola biləcəyini nəzərə alaraq, Azərbaycan tərəfi qarşıdan gələn parlament seçkilərində DTİHB-nin başqa formada iştirakını nəzərdən keçirməyə hazır olduğunu bildirib: "Təəssüf ki, DTİHB heç bir tutarlı arqument göstərmədən iştirakçı dövlətin dəvəti əsasında ona yardım göstərməkdən məqsədyönlü şəkildə imtina edib".

Azərbaycan tərəfi "DTİHB-nin bu qeyri-konstruktiv mövqeyini qurumun mandatına və ATƏT-in əməkdaşlıq ruhuna zidd olduğunu və qurum tərəfindən DTİHB-ə həvalə edilmiş mandatı pozmasına zəruri qiymət verilməsinin vacib olduğunu bəyan edib".

ATƏT-dən fərqli olaraq AŞ PA seçkiləri izləməyə həvəslidir və qurum təmsilçilərinin Bakıdakı son görüşləri də bunu təsdiqlədi.

Ancaq belə yanaşmalar da var ki, beynəlxalq təşkilatlar konfrantasiya mühitinin hökm sürdüyü bir vaxtda keçirilən seçkilərin legitimliyini şübhə altına ala, tanımaya bilər. Hakimiyyət təmsilçiləri iddia edir ki, beynəlxalq institutların tutduğu mövqe seçkilərin nəticələrinə heç bir təsir göstərməyəcək.

### PA rəhbəri Qərblə münasibətləri geniş təhlil edib

Qarmaqarış siyasi gəlişmələrlə zəngin olan ötən həftə Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında, yaxud Azərbaycana münasibətdə ikili standartlar" məqaləsi qismən diqqətdən kənarda qalıb. PA rəhbəri yaxınlaşmaqda olan seçkilərdə hakimiyyətin strategiyasını bir daha açıqlayıb və məqalədə əsas xətt kimi Qərbin təzyiqləri fonunda rəsmi Bakının tutduğu mövqedən çəkilməyəcəyi vurğulanıb.

**R.Mehdiyev məqalədə bir daha Qərbin "rəngli inqilablar" siyasətinə toxunub:** "Qərb dövlətlərinin və onların xidmətində duran institutların düşünülməmiş, başqa dövlətlərin və regionların mədəni, dini, tarixi inkişaf determinantlarını nəzərə almayan qloballaşma siyasəti qlobal miqyasda münaqişələrin və qeyri-sabitliyin artmasına gətirib çıxardı. Yeni müstəqil dövlətlərin yerləşdiyi coğrafi ərazi mübarizə məkanına çevrilib və maraqların sərt toqquşması vahid iqtisadi vəziyyətə dağıdıcı təsir göstərir. Böhranın dərinləşməsi, beynəlxalq hüququn təsirindən kənarda qalan qaynar bölgələrin meydana çıxması üçün şəraitin yaradılması suveren milli dövlətlərin inkişafı prosesinə ağır zərbə vurur, qarşı duran tərəflər arasında kompromis axtarışlarını son dərəcə çətinləşdirir".

**PA rəhbəri müasir dünyada böhranın böyüməsində rolu olan Avropa Birliyini göstərir:** "Yalnız Avropa Birliyinin deyil, həm də ATƏT, Avropa Şurası, İnsan Haqları üzrə Avropa Məhkəməsi kimi kontinental institutların anti-Azərbaycan siyasətinin analizi Azərbaycanın milli maraqları üçün praktik əhəmiyyət malikdir. Rəsmi Bakı üçün müstəqil Azərbaycan barəsində bu strukturların həm qlobal, həm də regional determinantlar kimi qərəzli siyasətinin öyrənilməsi vacibdir".

**R.Mehdiyev məqalədə vurğulayır ki, Avropa institutlarının Azərbaycana qarşı fəaliyyəti zamanı suveren dövlətə siyasi təzyiq metodu kimi insan hüquqları məsələsindən istifadə olunur:** "Süni böyüdülən problemlərin və ənənəvi alətlər dəstinin köməyi ilə dövlətin daxili işlərinə müdaxilə həyata keçirilir, əhəmiyyətli qərarların qəbulu təcrübəsində "ikili standartlar" tətbiq edilir".

PA rəhbəri vurğulayır ki, "prezident İlham Əliyevin yürütdüyü suveren və müstəqil siyasət, iqtisadi sərbəstlik öz geosiyasi məqsədlərini reallaşdırmaq üçün ölkəmizi qeyri-sabit görmək istəyən bəzi Qərb dairələrini qıcıqlandırır."

**R.Mehdiyev Avropa Parlamentinin qəbul etdiyi qətnamələrə də toxunub:** "Avropa Parlamenti bu gün faktiki olaraq ittifaq məkanında heç bir real gücə malik deyil. Bu orqanın icrası məcburi xarakterə malik qətnamə qəbul etmək səlahiyyəti yoxdur. Onun tərəfindən qəbul olunan rəsmi sənədlərin əksəriyyəti tövsiyə xarakteri daşıyır və onların icrasına nəzarət Avropa İttifaqı Parlamentinin üzvlərinə ötürülür. Mövcud vəziyyətdə öz statusunu saxlamaq üçün Avroparlament onun səlahiyyətlərinə aidiyyəti olmayan alternativ fəaliyyət platforması axtarır. Avroparlamentin fəaliyyəti nəticəsində müəyyən tendensiyalar yaranır ki, bu da onun Aİ-yə daxil olmayan, lakin Avropa İttifaqı üçün böyük əhəmiyyətə malik ölkələrə qarşı informasiya təzyiqi meydançası, "yumşaq güc" rıçaqı kimi istifadə olunmasına gətirib çıxarır. Saysız-hesabsız reproduksiya çoxluğu heç kimə lazım deyil, qərəzli qətnamələr isə əsasən Azərbaycan kimi müstəqil siyasət yürüdən ölkələrə təsir etmək məqsədi daşıyır. Lakin avropalı deputatlar anlamırlar ki, onların sakitləşdirmə və qorxutma cəhdləri əvvəlcədən müvəffəqiyyətsizliyə məhkumdur və Aİ-nin özünün vəziyyətini yaxşılaşdırmaq əvəzinə daha da pisləşdirir".



### "MTN işi" seçkiyə diqqəti arxa plana keçirib, amma...

**PA rəhbəri Azərbaycanla bağlı keçirilən dinləmələr, müzakirələr və qətnamələri xatırladaraq yazır:** "2004-cü ildən bəri Avroparlament Azərbaycana qarşı 11 qətnamə qəbul edib, 200-dən çox debat, dinləmələr keçirib, bəyannamələr, parlament müraciətləri və ərizələr qəbul edib. Müqayisə üçün: bu dövrdə Gürcüstanla bağlı bir qətnamə qəbul edilib, 10-dan az müzakirə keçirilib, bəyannamə, parlament müraciəti və bəyanatı qəbul edilib. Ermənistanla bağlı bir qətnamə qəbul edilib, 20-dən az müzakirə keçirilib, bəyannamə, parlament müraciəti və bəyanatı qəbul edilib. Azərbaycan və Ermənistanda demokratiyanın inkişafına ayrılan diqqət arasında bu cür kəskin fərqi necə izah etmək olar? Bu ölkənin profil ehtiyacları artıq avroparlamentariləri narahat etmirsə, bəlkə demokratiyanın inkişafı ilə bağlı Ermənistanda Skandinaviya modeli qalib gəlib, sadəcə, bizim bundan xəbərimiz yoxdur?!"

**R.Mehdiyevin məqaləsindən daha bir sitat:** "Əgər böyük güclər XXI əsri qanlı müharibələr əsri, uzanan münaqişələr, soyqırım, davam edən və pislənilməyən işğal kimi yox, sabitlik, inkişaf və əməkdaşlıq əsri kimi görmək istəyirlərsə, onda beynəlxalq hüququ normalarına hörmət etmək, əməkdaşlığı bərabərhüquqlu dialoq əsasında qurmaq, digər ölkələrin maraqlarına hörmət etməli və müstəqil ölkələrin daxili işlərinə qarışmamalıdırlar". Göründüyü kimi, PA rəhbəri həm də prezident İlham Əliyevin son çıxışlarını umumiləşdirərək rəsmi Bakının həftəsonu baş tutacaq parlament seçkiləri ərəfəsi mövqeyini bir daha ortaya qoyub.

### Spiker və niyə məhz indi...

Qərbin Azərbaycana təzyiqlərinin əsas səbəbləri sırasında rəsmi Bakının Rusiya ilə daha da yaxınlaşması da var ki, bu barədə spiker Oqtay Əsədov bəyan edib. Parlament seçkiləri ərəfəsində ölkəmizə gəlmiş Rusiyanın aparıcı KİV nümayəndələrinin bir qrupu oktyabrın 26-da Milli Məclisdə olub. Ölkə.az xəbər verir ki, O.Əsədov rusiyalı jurnalistlərlə görüşündə Qərb ölkələrinin Azərbaycana təzyiqindən danışıb.

**O.Əsədov bildirib ki, Azərbaycan Rusiyaya qarşı sanksiyalara qoşulmaqdan imtina etdiyinə görə Qərb ölkələri tərəfindən təzyiqlərə məruz qalır.**

"Azərbaycan öz siyasətini müstəqil şəkildə yürütmək niyyətindədir. Bizə qarşı təzyiqin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Rusiyaya qarşı sanksiyalara qoşulmayıb. Bizim prezident sərbəst siyasət aparmaq istəyir. Bu isə çoxlarının xoşuna gəlmir və bizə qarşı hücumların mahiyyəti də məhz bundan ibarətdir" deyə, O. Əsədov bəyan edib.

Onun sözlərinə görə, iki ölkə arasında əməkdaşlığa dair 200-dən artıq saziş imzalanıb və Rusiya yeganə ölkədir ki, Azərbaycan onunla dövlət sərhədlərinin delimitasiya prosesini tamamilə başa çatdırıb.

O əlavə edib ki, iki ölkə bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir, uğurla hərbi əməkdaşlığı inkişaf etdirir.

Əsədov bildirib ki, bu gün respublikada 300-dən çox məktəb rus dilində tədris aparır və rus dili bütün ali təhsil müəssisələrində keçirilir. Yüksək iqtisadi münasibətlərdən söz açan O.Əsədov qeyd edib ki, Rusiya və Azərbaycan arasında ticarət dövriyyəsi 4 milyard ABŞ dolları təşkil edir və Azərbaycanda 300-ü Rusiya kapitalına malik olan 500 şirkət fəaliyyət göstərir.

Azərbaycana Qərbin təzyiqlərinin əsl səbəbi barədə ölkənin faktiki ikinci səlahiyyətli şəxsi səviyyədə bəyan edilməsi, zənnimizcə, ilk dəfədir. Bu barədə mediada müxtəlif şərhçilər danışsa da, Azərbaycan hakimiyyəti Rusiyanın yanında olduğu üçün təzyiqlərə məruz qaldığını birmənalı və bunca açıq şəkildə dilə gətirməmişdi. Rusiya rəsmiləri son günlər iki dəfə Azərbaycandakı seçkiləri müşahidə etməkdən imtina edən ATƏT-i sərt şəkildə qınayıb. Həm xarici işlər naziri Sergey Lavrov və Rusiya MSK-sının sədri Vladimir Çurov ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) Azərbaycana müşahidəçi göndərməsini pisləyib.

Rəsmi Bakının hər iki mövqeyinin daha çox Qərbə ünvanlandığı aydındır. "Rusiya məsələsinin" məhz indi qabardılması isə ehtimal ki, Azərbaycanda hansısa seçkisonrası planlar qurmaq istəyinə düşə biləcək qüvvələrə yönəlib...

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 238 (6266) 27 oktyabr 2015



# Ən maraqsız seçki

**Azər RƏŞİDOĞLU**

**Seçkiyə bir neçə gün qalıb. Sıravi vətəndaş üçün bu, sanki sıradan bir hadisədir. Məsələ ondadır ki, ötən seçkilərdə heç olmasa seçkinin imitasiyası olurdu. Bu dəfə isə seçkinin imitasiyası belə yoxdur. Ən başlıcası isə Azərbaycan vətəndaşları da seçkilərə etimadını tam itirib.**

Hər seçkidən sonra cəmiyyətin demokratikləşməsi istiqamətində insanların ümidləri sarsılıb. Azərbaycanda artıq demokratik mübarizə perspektivinin olmaması barədə rəy formalaşıb. Ona görə də seçkilərə münasibət bugünkü kimi acınacaqlı vəziyyətdədir. Azərbaycan hakimiyyəti artıq beynəlxalq təşkilatlara qarşı da sərt ritorika ilə çıxışını davam etdirir.

Artıq Azərbaycanda demokratik institutların yaradılması ilə bağlı rəsmi Bakıya hansısa mesajların verilməsinin perspektivinə Qərb təşkilatları, beynəlxalq qurumlar da inanmır. Kənardan görünən budur ki, Azərbaycan Rusiya ilə yaxınlaşmaq yolunu seçib. Bu baxımdan, rəsmi Bakı sanki Rusiya ilə başlı-başına buraxılıb. Kənardan belə bir rəy formalaşdırılıb ki, Azərbaycan öz seçimini edib və demokratik dünyadan, Avropadan, Avroatlantik məkana inteqrasiyadan uzaqlaşmaqla məşğuldur.

Beynəlxalq təşkilatların bu seçkilərə münasibətinin indiki kimi olmasının əsas səbəbi budur. İndidən demək olar ki, növbəti parlamentin legitimlik məsələsi rəsmi Bakı üçün çox böyük problem yaradacaq. Qarabağ danışıqlarında Bakı üçün ciddi maneə ola bilər. Bütün bunların əsas səbəbi cəmiyyətdir. Cəmiyyət itirdiyini geri istəmirsə, heç bir beynəlxalq təzyiq Azərbaycanda demokratik proseslərin başlanmasına rəvac verə bilməz.

Digər tərəfdən, seçkinin önəmi yeni hökumətin formalaşması ilə bağlıdır. Hər seçki yeni məmur, nazir dəyişikliyi və fərqli idarəçilik anlamına gəlir. Avropa ölkələrində hakim partiya təkrar iqtidar olursa, yenə də hökumətdə yeni komanda ilə təmsil olunur. Söhbət yalnız seçkilərin nəticələrinin şübhə doğurmasından da getmir. Konfiqurasiyaların da dəyişməz qalması ciddi böhran yaradır.

İstənilən halda, siyasi müstəvinin dağıdılması, siyasi partiyaların sıradan çıxarılması hakimiyyətin əsas məqsədlərindən hesab oluna bilər. Bu baxımdan, proporsional seçki sisteminin ləğvinin bir partiyalı sistemlə sonuclanacağını anlayan beynəlxalq təşkilatlar mahiyyət etibarilə bu sistemə qayıdışı əngəlləmək istiqamətində təzyiqlərini davam etdirirlər.

Bir sözlə, iqtidara yeni islahatlar zərfini təqdim edən və bunu reallaşdırmaq üçün danışıqların vacib olduğunu vurğulayanlar Azərbaycanda yaxın gələcəkdə demokratiyanın daha çox boğula biləcəyindən ehtiyat edirlər. Qərb anlayır ki, siyasi partiyaların ləğvi ona gətirib çıxarıb ki, ölkədə faktiki olaraq, klassik mənada siyasi partiya mövcud deyil. İslahat barədə nəinki fikir yürütmək, hətta düşünmək belə qadağandır.

Belə bir şəraitdə isə tək partiyalı siyasi sistem daha ağır formaya çevrilə bilər. Qərb hesab edir ki, proporsional sistemin bərpası ilə müxalifət partiyalarında canlanma yarana bilər. Hesablamalara görə, son nəticədə bunlar demokratik inkişafa gətirib çıxarmalıdır.

"Gülərqeyt qalmaqalı" da göstərdi ki, majoritar sistemin eybəcərliklərindən biri də odur ki, millət vəkilləri təsdiq edilmiş siyahı əsasında parlamentə düşürlər və bu zaman onların maliyyə imkanları da nəzərə alınır.

Proporsional seçki sistemi isə həqiqi demokratiya quran ölkələrdə çoxpartiyalı sistemin oturuşmasına, güclü partiyanın formalaşmasına gətirə bilər. Odur ki, Azərbaycanda da bu sistemin bərpası məsələsi gündəmə gəlir...

# Hacı İbrahimlə Ekologiya Nazirliyi arasında sənəd qalmaqalı

## Nazirliyin mətbuat xidmətinin rəhbəri **İradə İbrahimova:** "Ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı sənədi bizə təqdim etməyib"

**"Xəzər Adaları" layihəsinin müəllifi, "Avesta Konsern"in rəhbəri Hacı İbrahim Nehrəmli ilə bağlı mətbuatda yeni məlumatlar yayılıb. Yayılan xəbərlərə görə, Hacı İbrahimin "Xəzər Adaları"nın tikintisi ilə bağlı heç bir dövlət sənədi yoxdur. Eyni zamanda ictimaiyyətdə yayılan məlumatlara görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi də "Avesta Konsern"ə ərazidə şəhərcik salınması ilə bağlı gərəkən ekoloji rəyi verməkdən imtina edib.**

**Yayılan məlumatları dəqiqləşdirmək üçün sözügedən nazirliklə əlaqə saxladıq. Nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova musavat.com-a açıqlamasında məsələ ilə bağlı aşağıdakıları söylədi:**

""Avesta Konsern" şirkəti tikinti işlərinə başlamazdan öncə müvafiq sənədləri, o cümlədən ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı sənədi, mövcud qanunvericiliyə əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırmalı idi. Lakin bu sənəd işlərə başlanıldıqdan xeyli sonra nazirliyə təqdim edilib. Həmçinin ətraf mühitə hansı təsirlərin olacağı, dənizin ilkin vəziyyəti, tikinti ilə əlaqədar ətraf mühitə dəyəcək zərər öyrənilməyib. Bütün bunlara görə də biz ekoloji rəy verməkdən imtina etmişik".



### Hacı İbrahim Nehrəmli: "Düz deyirlər, həmin sənədi verməmişəm, bunun da səbəbi var"

**Nazirliyin əməkdaşlarının gətirdiyi arqumentlərə cavab almaq üçün Hacı İbrahim Nehrəmli ilə də əlaqə saxladıq. H.İbrahim musavat.com-a açıqlamasında bildirdi ki, bu məsələdə ictimaiyyətə təfsilatlı məlumat verilməyib:** "Yazırlar ki, Hacı İbrahim ərazini zəbt edir. Sual verirəm ki, zəbt necə olur? Mənim bütün sənədlərim yerindədir. İcazəmi də almışam. Hansı zəbtdən söhbət gedir ki, dediyim kimi, hər bir sənədim yerindədir. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən deyilən sənədi almamışam. Onu düz deyirlər. Çünki bəzi şərtlər, tələb olub ki, yerinə yetirə bilmirik. Mənim nazir Hüseyn Bağırova böyük hörmətim var. O, işinin öhdəsindən gələn nazirdir. İndiyə qədər nazirliyə ətraf mühitlə bağlı lazım olan dörd kitab göndərmişik. Lakin onlar bunu qəbul etməyiblər. Beşincini də 6 ay bundan öncə göndərmişik, bu dəqiqə də nazirlikdədir. Ancaq onlar heç bir rəy vermirlər. Nə edə bilərik? Tikintiyə başlamamışdan öncə də Ekologiya Nazirliyinə müraciət etmişik və onlar bizə rəy veriblər. Elə bu rəylə də tikintini başlamışıq. Sonra isə biz ətraf mühitin qorunması ilə bağlı kitab şəklində məlumat yazmalı idik. Onu da qeyd etdiyim kimi, yazdıq. Lakin onlar geri qaytarırlar. Yazıblar ki, Hacı İbrahimin şəhərcikdə sement zavodu var. Mənim burada sement zavodum yoxdur. Sadəcə, beton zavodum var. Bunlar ayrı-ayrı şeylərdir. Biz sementi başqa holdinqlərdən alırıq. Hər bir şey dövlətin nəzarəti altında olub və yüksək keyfiyyətli tikintilər aparılıb. Bununla bağlı da bütün aktlarımız var".

❑ **Əli RAİS**

# Sahibkar prezidentdən kömək istədi

## **Elvin Məmmədov:** "Fermer təsərrüfatımızı çökdürürlər, ümidimiz Sizədir..."

**Fermer təsərrüfatı ilə məşğul olan Elvin Məmmədov onun sahibkarlıq fəaliyyətinə törədilən əngəllər və bu üzdən biznesinin məhv olması ilə bağlı ölkə prezidenti İlham Əliyevə müraciət edib. E.Məmmədov müraciətinin ictimailəşdirilməsini xahiş edib.**



**E.Məmmədov yazır:**

"Cənab Prezident! Biz sizin sahibkarlığın inkişafı ilə bağlı atdığınız addımlardan çox məmnun qalmışıq. Sevinirik ki, bundan sonra bizim başımıza açılan oyunlara son qoyulacaq. Siz oktyabrın 25-də Sumqayıtda səfərdə olarkən bildirdiniz ki, bu gün biznesə mane olmaq istəyən şəxslər Azərbaycana xəyanət edirlər. Və biznes adamlarına səslənərək qeyd etdiniz ki, problemlərlə üzləşəndə dərhal səsinizi qaldırın. Mən bir sahibkar kimi Sizə güvənərək, bu müraciəti yazıram.

Mən ailə üzvlərimlə birlikdə min bir əziyyət çəkib kiçik fermer təsərrüfatı qurmuşam. Fermer təsərrüfatı Qobu qəsəbəsində yerləşir. Bizim təsərrüfatımız son bir neçə ayda çox qəribə bir metodla çökdürülür. Bir neçə aydır ki, fermadan ardıcıl olaraq oğurluqlar baş verir. İndiyədək 70-dən artıq qoyunumuz oğurlanıb. Bu, adi oğru işi deyil, sadəcə, bu yolla bizim işimizə əngəl törətmək istəyirlər. Nəhayət, oğrunun kimliyini müəyyən etmək üçün fermaya müşahidə kameraları quraşdırdıq. Bundan bir neçə gün sonra - 2015-ci il avqustun 31-də, gecə saat 3 radələrində daha üç qoyunun oğurlanması videokameraya düşdü. Həmin çəkilişləri də əlavə etməklə, sahə müvəkkilinə şikayət etdik. Əslində biz buna qədər oğurluğun kim tərəfindən edildiyindən şübhələnmişdik. Kamera görüntüsü də fakt oldu. Həmin adam Qobu kəndində yaşayır və kənd camaatı tərəfindən müsbət xarakterizə olunmayan biridir. İndiyədək bir neçə Qobu sakini oğurluq ittihamı ilə ondan rəsmi şikayət edib. Dəfələrlə oğurluq hadisələri ilə bağlı cinayət işlərində adı keçib. Bu adamın arxasında kimsə durur və faktiki olaraq bizdən əl çəkmir. Müşahidə kameralarından da həmin adamı tam tanımışıq. Ancaq bizim rəsmi şikayətimiz və faktlar ortada olmasına baxmayaraq, cinayəti törədən şəxs bu günədək cəzasız qalıb. Müvafiq orqanlara dəfələrlə müraciət etmişik, hadisədən iki aya yaxın vaxt ötməsinə baxmayaraq, indiyədək heç bir nəticəsi yoxdur.

Məqsədli şəkildə bizim təsərrüfatımızı çökdürmək istəyirlər və artıq buna nail olublar. Biz artıq fermer təsərrüfatını qapatmaq məcburiyyətində qalmışıq. Çünki biz qoyun-quzu yetişdirdikcə, bunu kimlərsə oğurlayıb aparır. Təsərrüfatda 5-6 şəxs də işlə təmin olunmuşdu.

**Cənab prezident!** Mən bir sahibkar kimi Sizə səslənir, Sizdən dəstək istəyirəm. Mənim təsərrüfatımı faktiki olaraq məhv etmiş şəxsin tapılıb cəzalandırılmasına və vurduğu ziyanın ödənməsində bizə köməklik göstərməyinizi xahiş edirəm. Biz çox istəyirik ki, fermer təsərrüfatımızı qapatmayaq, oranı daha da inkişaf etdirək. Ancaq yaranmış vəziyyətdə bunu etmək mümkün deyil. Ümidimiz yalnız sizədir.

**Hörmətlə, kiçik sahibkar Elvin Məmmədov".**

❑ **M.MAHRIZLI**

YENİ MÜSAVAT
N 238 (6266) 27 oktyabr 2015

**Parlament seçkilərinə sayılı günlər qalır. Builki seçkiləri ATƏT, Avropa Birliyi kimi dünyada nüfuzlu beynəlxalq təşkilatlar müşahidə etməyəcək. Buna baxmayaraq, MSK və hakimiyyət bir sıra digər beynəlxalq təşkilatların, dövlətlərin müşahidəçilərini ölkəyə dəvət etməklə seçkinin beynəlxalq müşahidə altında keçdiyini ortaya qoymağa çalışır. MSK sədri Məzahir Pənahov bildirib ki, hazırda MSK-da 465 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib.**

# YAP-ın namizədi seçkidən çəkildi

## 15 və 45 saylı dairələrdə namizədlər deputat rəqiblərinin namizədliklərinin ləğvini tələb etdi; seçkilərdə beynəlxalq müşahidəçilik hansı səviyyədə olacaq?

**Onlar 36 beynəlxalq qurumu təmsil edirlər. Seçkiləri ümumilikdə 53 ölkəni təmsil edən müşahidəçi missiyaları izləyəcək:** "Bunlara Avropa Şurası Parlament Assambleyası (AŞPA), Müstəqil Dövlətlər Birliyi (MDB), Türkdilli Ölkələrin Parlament Assambleyası (TürkPA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası (QİƏT PA), Avstraliya, İtaliya, Bolqarıstan, Litva, Latviya parlamentləri, Böyük Britaniya Lordlar palatası, müxtəlif ölkələrin mərkəzi seçki komissiyalarının nümayəndə heyətlərinin rəhbərləri, Avropa Seçki Müşahidə Akademiyası, GÜAM, Amerika siyasi monitorinq mərkəzi və digər mötəbər qurumlardan olan nümayəndə heyətləri daxildirlər. Bir sözlə, müşahidəçilərin coğrafiyası çox genişdir. Bu baxımdan müşahidəçilərin sayı və miqyası ötən seçkilərdən müsbət istiqamətdə fərqlənir".

M.Pənahov vurğulayıb ki, müstəqil şəkildə dairə seçki komissiyalarına müraciət edib müşahidə aparmaq istəyənlərin sayı isə 55 mini keçib. Azərbaycanlı müşahidəçilərin böyük əksəriyyəti siyasi partiyaların nümayəndələridir.

M.Pənahov əlavə edib ki, akkreditasiya olunanların sayına istinad olunsa, hazırda 1 seçki məntəqəsinə təxminən 10 müşahidəçi düşür, bu isə kifayət qədər böyük rəqəmdir.

Deputatlığa namizədlərin sayında isə hər gün azalma gedir. 17 saylı Yasamal 3-cü seçki dairəsində Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Lalə Əhmədova namizədliyini geri götürüb. Dairə Seçki Komissiyasından verilən məlumata görə, L.Əhmədova könüllü olaraq bu addımı atıb. L.Əhmədovanın adı artıq Mərkəzi Seçki Komissiyasının İnformasiya Mərkəzinin saytında 17 saylı Yasamal seçki dairəsindən deputatlığa namizədlər sırasından da çıxarılıb. Lalə Əhmədova hazırda Xəzər Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsində çalışır. Onun seçkidən geri çəkilməsindən sonra sözügedən dairədə 6 namizəd qalıb. Onlar "Azadlıq-2015" seçki blokundan Şahin Abbasov, BAXCP-dən Dünyamalı İmaməliyev, ADİSP-dən Cavid Quliyev, tanınmış jurnalist İlhamiyyə Rza, bitərəf Elşad Həsənov və Mehriban Allahverdiyevadır.

YAP-ın namizədinin geri çəkilməsindən sonra bu namizədlərdən hansının daha şanslı olduğuna gəlincə, həmin namizədlərin sırasında İlhamiyyə Rzadan başqa heç kim ictimaiyyət içərisində tanınan şəxs deyil. Siyasi təhlilçilər və seçki ekspertləri 17 saylı dairədən məhz İlhamiyyə Rzanın seçiləcəyi ehtimalının yüksək olduğunu bildirirlər.

15 saylı Yasamal birinci seçki dairəsində isə deputatlığa namizədlər hazırda 17 saylı dairədən deputat olan və bu dəfə seçkiyə 15-ci dairədən qatılan Ülvi Quliyevdən şikayətçidirlər. Həmin dairədən "Azadlıq 2015" blokunun namizədi, VİP sədri Əli Əliyev və bitərəf namizəd Nişat Mehdiyev deputat Ülvi Quliyevin qeyri-qanuni vasitələrlə seçki təbliğatı aparması ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova, o cümlədən 15 saylı Yasamal birinci seçki dairəsinin sədri Sərdar Süleymanova rəsmi qaydada müraciət ediblər.



Ə.Əliyev və N.Mehdiyev MSK sədrinə göndərdikləri və baş seçki qurumunda qeydə alınmış müraciətlərində Ü.Quliyevin çap-təşviqat materiallarında və seçicilərlə keçirdiyi görüşlərdə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulduğunu konkret faktlarla göstəriblər. Onlar qeyd ediblər ki, Yasamal rayonu, D. Bünyadzadə küçəsi 113 ünvanında yerləşən 38 saylı orta məktəbin inzibati binasındakı 10 və 11 saylı seçki məntəqələri üçün nəzərdə tutulan və binanın qarşısında deputatlığa namizədlərin təbliğat və təşviqatı üçün quraşdırılmış lövhələrdə namizəd Ülvi Zahid oğlu Quliyevin təşvişat materialı kimi yapışdırılmış plakatında materialın tirajı, çap tarixi, sifarişçinin adı və çap edən mətbəənin rekvizitləri göstərilməyib. Bu da Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 87.3-cü maddəsinin tələblərini kobud şəkildə pozur. Halbuki bu məcəllənin 87.5-ci maddəsində qeyd edilir ki, seçkiqabağı təşviqat materiallarının 87.3 - 87.4-cü maddələrinin tələblərini pozmaqla yayılması qadağandır.

Müraciətdə sonra deyilir ki, A.M.Şərifzadə küçəsi 203 V ünvanında yerləşən 138 № li poçt şöbəsinin ön şüşəsində namizəd Ülvi Zahid oğlu Quliyevin təbliğat və təşviqat üçün istifadə etdiyi plakat yapışdırılıb. Göstərilən hal da Seçki Məcəlləsinin 86.5-ci maddəsinin tələbələrini pozur.

Müraciət müəllifləri həmçinin bildiriblər ki, Yasamal rayonu A.M.Şərifzadə küçəsi 204 ünvanında Baki 2 saylı Baza Tibb Kollecinin inzibati binasında yerləşən 4 saylı seçki məntəqəsində namizəd Ülvi Quliyev seçicilərlə görüş keçirib. Halbuki qanun seçki məntəqələrində seçicilərlə görüşü yasaq edir.

Ə.Əliyev və N.Mehdiyev qeyd olunmuş faktları nəzərə alaraq, kobud qanun pozuntularına yol verdiyi üçün Ü.Quliyevin namizədliyinin ləğv olunmasını xahiş ediblər.

Qeyd edək ki, 15 saylı dairədən Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbər də deputatlığa namizəddir.

Müsavatın 115 saylı Şəki seçki dairəsindən namizədi İkram İsrafil isə dairəni əhatə edən kəndlərdə ardıcıl görüşlər keçirir. İkram İsrafil ötən günlər ərzində Şəkidə kəndbəkənd gəzərək seçiciləri ilə möhtəşəm görüşlər keçirib. Müsavatın Şəki şəhər təşkilatından verilən məlumatda bildirilir ki, bir neçə gün ərzində İkram İsrafil Bideyiz, Baş Kəldək, Oravan, Qırxbulaq, Köbər Zəyzid, Baş Küngüt, Çapağan, İbrahimkənd, Fazilkənd, Aşağı Küngüt, Vərəzət və Baş Zəyzid kəndlərində görüşlər keçirib. Görüşlərdə İkram İsrafil ölkənin və Şəkinin problemlərindən danışıb, bu problemlərin həlli yollarına dair fikirlərini bölüşüb, seçicilərin problemləri ilə maraqlanıb. İkram İsrafilin görüşünə gələn seçicilər namizədə sonadək dəstək verəcəklərini bildiriblər. Xüsusən ağsaqqallar İkram İsrafilə öz xeyir-dualarını veriblər. İkram İsrafili bu görüşlərdə Müsavatın Şəki təşkilatının sədri, tarixçi-alim Həbibullah Manaflı müşayiət edib.

**Əksər kəndlərdə onun görüşlərinə problem yaradılmasa da özünün verdiyi xəbərə görə, Orta Zəyzid kəndində seçicilərlə görüşünə icra nümayəndəsi və bələdiyyə sədri mane olublar:** "Süni şəkildə yaradılmaq istənən gərginliyin və xoşagəlməz hadisənin baş verməməsi üçün bu görüşümü təxirə saldım. Yaradılan maneədən gəldiyim qənaət ondan ibarətdir ki, keçirdiyim görüşlərdə seçicilərin yüksək fəallığı və mənə olan münasibətləri kimlərisə narahat edib. Bütün maneələrə baxmayaraq kənd insanları ilə qərara gəldik ki, qarşıdakı günlərdə Orta Zəyzid kəndində seçicilərlə görüşümü keçirim".

**45 saylı Abşeron seçki dairəsindən AMİP-in namizədi Təbriz Musayev isə seçkidə YAP-dan olan rəqibi, spiker Oqtay Əsədovdan şikayətçidir. Onun dediyinə görə, O.Əsədovun təbliğatında Seçki Məcəlləsinin tələbləri pozulur:** "Oqtay Əsədovun seçki kampaniyasında Seçki Məcəlləsinin tələblərini pozduğunu sübuta yetirən çoxsaylı materiallar əlimizdədir. Bu materiallar qanunun azacıq işlədiyi ölkədə onun namizədliyinin ləğvi üçün yetərlidir. Həmin materialları həm MSK-ya, həm də məhkəməyə təqdim edəcəyəm. YAP-ın apardığı siyasət, seçkilərin saxtalaşdırılması xalqın iradəsinin qırılmasıdır. Mən seçicilərlə keçirdiyim görüşlərdə bu qənaətə gəldim ki, xalq seçkinin az da olsa demokratik keçiriləcəyinə inanmır, ona görə də seçkiyə gedib səs verməyin mənasız olduğunu düşünür. Belə bir vəziyyətdə mən tam əminəm ki, seçicilərin uzağı 15 faizi 1 noyabrda səsverməyə gedəcək. Bir ölkədə seçkiyə cəmi 15 faiz seçicinin qatılması isə həmin ölkədə seçki institutunun məhv olması deməkdir. Cəmi 15 faiz seçicinin seçkiyə getməsi ilə keçirilən seçkilərdə formalaşmış parlament isə xalqın parlamenti sayıla bilməz".

❑ **Etibar SEYİDAĞA**

# "Sovetski" sakinləri İlhamiyyə Rza ilə görüşdü

## Deputatlığa namizəd seçicilərinin problemlərini dinləyib, onlara hüquqi dəstək verəcəyini bildirib







**17 saylı Yasamal 3-cü seçki dairəsindən deputatlığa namizəd olan İlhamiyyə Rza "Sovetski" sakinləri ilə görüşüb, onların köçürülmə prosesi zamanı yaşadıqları problemləri dinləyib. İ.Rzanın seçki qərargahında keçirilən görüşdə 20-yə yaxın "Sovetski" sakini iştirak edib. Çingiz Mustafayev və Abdulla Şaiq küçələrində yaşayan sakinlər problemlərinin həlli üçün İlhamiyyə Rzadan dəstək istəyiblər.**

Sahibə adlı şikayətçi bildirib ki, Yasamal Rayon İcra Hakimiyyəti nümayəndələri onun evini xəbərdarlıq etmədən sökməyə cəhd ediblər: "İcra nümayəndələri məni evimdən çıxmağa məcbur etdilər, lakin qapını bağlayıb, etirazımı bildirdim. Bu zaman pəncərənin dəmir barmaqlığını sökməyə başladılar ki, qanunsuzdur. Mən başa düşə bilmirəm, hər kəsin evinin pəncərəsində dəmir barmaqlıq var. Səs-küyə camaat yığıldı".

Sakinlərin sözlərinə görə, onlar icra nümayəndələrini danışıqlar aparmaq üçün "Sovetski" sakinlərinin "Təşkilat Komitəsi"nin sədri Namiq Quliyevin üstünə yollayıblar. İcra nümayəndələri ilə sakinlər arasında mübahisə yaranıb və Namiq Quliyev saxlanılıb. Dərhal məhkəmə keçirilib ona 10 sutka həbs verilib.

Namiq Quliyev həbs olunduqdan sonra komitənin sədr müavini Mirməmməd Aslanov başda olmaqla, "Sovetski" ağsaqqalları baş nazirin müavini Abid Şərifovun qəbulunda olublar və baş verən hadisə ilə bağlı onu məlumatlandırıblar.

**Oktyabrın 22-də "Sovetski"də keçirilən etiraz nümayişi zamanı saxlanılan "Sovetski" sakinlərinin "Təşkilat Komitəsi"nin sədri Namiq Quliyev Abid Şərifovun müdaxiləsindən sonra azadlığa buraxılıb. Bu barədə danışan komitənin sədr müavini Mirməmməd Aslanov bildirib ki, N.Quliyevin azadlığa çıxmasında deputatlığa namizəd İlhamiyyə Rzanın da dəstəyi böyük rol oynayıb:** "Namiq Quliyev həbs olunduqdan sonra "Sovetski" camaatı narazılığını bildirmək üçün toplaşmaq istədi. Camaatı birtəhər sakitləşdirdik. Deputatlığa namizəd İlhamiyyə Rza ilə görüşdük, sağ olsun, problemimizi dinlədi və bizi lazımi yerlərə yönəltdi. Sonra Yasamal Rayon Polis İdarəsinə getdik. İdarənin rəisi bizi yaxşı qarşılaşdı və problemin həll olunacağını dedi. Buna baxmayaraq, baş nazirin müavini Abid Şərifovun da qəbulunda olduq. O, Namiq Quliyevin həbs olunmasını pislədi və camaat tərəfindən seçilmiş sədrin həbsinin düzgün olmadığını dedi. Baş nazirin müavini camaatın narazılığının qarşısını almaq üçün komitə sədrinin tezliklə azad olunacağını bildirdi. Bir neçə saatdan sonra Namiq Quliyevin məhkəməsi keçirildi və məhkəmənin qərarı ilə o, əfv olundu".

**Görüşdə sakinlər digər problemlərini də dilə gətiriblər. Deputatlığa namizəd İlhamiyyə Rza onların problemlərinin həlli üçün lazımi qurumlara müraciət edəcəyini bildirib. O, sakinlərin problemlərini lazımi qurumlara çatdırmaqla yanaşı, söküntü ilə bağlı müəmmalı olan məsələlərə aydınlıq gətirəcəyinə də söz verib. Deputatlığa namizəd bildirib ki, hazırda bəzi suallar açıq olaraq qalır:** "Birinci məsələ budur ki, "Sovetski" ərazisində olan evlər nə vaxt söküləcək? İkinci bir məsələ, bütün evlərin hər kvadratmetrinə görə 1500 manat kompensasiyanın verilməsi qanunidirmi və hansı hüquqi akta əsaslanır? Üçüncü, mənzilləri ölçərkən divarların sahəsi və həyətyanı sahə hesablanmır. Söküləcək evlərin sahəsinin hesablanması işi kimlər və ya hansı qurum tərəfindən aparılır? Bu zaman narazılıq olarsa, kimə müraciət olunmalıdır? Bu suallar açıq olaraq qalır. Mən əlaqədar qurumlarla görüşərkən bu suallar ətrafında da müzakirə aparacağam".

**İlhamiyyə Rza onu da bildirib ki, onun seçki qərargahında hər həftənin çərşənbə axşamı sakinlərin qəbul günü keçirilir:** "Vəkil Bürosu" MMC-nin direktoru Arzu Alıyeva da bu işdə mənə yardımçı olur. O, qərargahda sakinlərlə görüş keçirir, problemlərini dinləyir, onlara hüquqi yardım edir".

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 238 (6266) 27 oktyabr 2015

# "Həbs edilən general yaxın qohumumdur"

## İsgəndər Həmidov: "Bəzi şəxslər və dairələr çalışdılar ki, Kəlbəcər seçki dairəsində seçkini İsgəndər Həmidov-Cavid Qurbanov qarşıdurmasına çevirsinlər"

**Azərbaycan Milliyyətçi Demokrat Partiyasının sədri, Müsavat Partiyasının 123 saylı Kəlbəcər seçki dairəsindən deputatlığa namizədi, keçmiş daxili işlər naziri İsgəndər Həmidov seçki kampaniyasının gedişi, MTN-lə bağlı baş verənlər və digər aktual məsələlərlə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

***- İsgəndər bəy, seçki kampaniyası yekunlaşmaq üzrədir, bu günə qədər seçki kampaniyanız necə gedir?***

- Bir-iki dəfə Bakıda seçicilərlə görüşümə polisin mane olmasını istisna etsək, seçki kampaniyamın normal, problemsiz getdiyini söyləyə bilərəm. Heç bir məhdudiyyət yoxdur, rayonları gəzib didərgin həyatını yaşamağa məhkum qoyulan kəlbəcərlilərlə görüşlər keçirirəm. Məni insanlar çox isti qarşılayır. Məcburi köçkün rayonlarından deputatlığa namizəd olmağın əlavə çətinlikləri var. Kəlbəcərli seçicilər ölkənin 60 rayonunda, 88 kəndində məskunlaşıblar. Təsəvvür edin ki, cəmi 65 min əhalisi, 42 min seçicisi olan bir rayondan deputatlığa namizədin seçicilərlə görüşü üçün cəmi iki yer ayrılıb. Həmin yerlər də Gəncədədir. Qalan 59 rayon və 88 kənddə məskunlaşan kəlbəcərlilərlə görüşlər keçirmək üçün faktiki olaraq yer ayrılmayıb. Müvafiq qurumlar təlimat qəbul ediblər ki, məcburi köçkün rayonlarından olan namizədlər seçicilərlə görüşlər keçirilməsinə yer ayrılması üçün görüş keçirmək istədiyi rayonların icra hakimiyyətinə müraciət eləməlidir. Deməli, mən 59 rayonun icra hakimiyyətlərinə müraciət etməliyəm. Bu isə əlavə vaxt itkisidir. Buna baxmayaraq, artıq demək olar ki, Qəbələdən başqa kəlbəcərlilərin məskunlaşdığı bütün rayonları əhatə edə, görüşlər keçirə bilmişik. Qəbələdə də bugünlərdə keçirəcəyik.

***- Görüşlər zamanı nə müşahidə etdiniz?***

- Bu seçki kampaniyasında Kəlbəcər əhalisinin çox ağır vəziyyətdə olduğunu daha dərindən öyrənə bildim. Camaatın acınacaqlı durumu qəlbimi parça-parça edir. Şamaxının Çuxuryurd kəndində məskunlaşan Kəlbəcər köçkünlərinin yaşadığı evi ev adlandırmaq mümkün deyil, yağış başlarından tökür. İnsan yaşayışı üçün zərrə qədər tələblərə cavab verməyən yataqxanalarda, yardımçı təsərrüfat binalarında, transformator ambarında həyatları çürüyən kəlbəcərlilər var. Bərdədə, Tərtərdə camaatın əlində olan torpaqları onlardan su qiymətinə almaq istəyiblər. Camaat satmaq istəməyəndə ərazinin suyunu, qazını, işığını kəsiblər ki, bezib ərazidən getsinlər. Deputat seçilməkdə məqsədim acınacaqlı həyata məhkum edilmiş kəlbəcərlilərin bu və digər problemlərini ciddi şəkildə qaldırmaqdır.

***- İsgəndər bəy, indiyədək xeyli namizəd seçki mühitinin normal olmadığını əsas gətirib namizədliyini geri götürüb. Sizin belə bir fikriniz yoxdur?***

- Şayiə buraxdılar ki, guya kimsə mənə pul verib və mən seçkidən yarımçıq çəkilmişəm, seçkidən sonra kimlərisə təbrik edəcəyəm və sair. Mən özümü və seçicilərimi təbrik edə bilərəm. Çünki seçilən mən olacağam. Məzahir Pənahovun qutusundan kim çıxacaq, onu bilmirəm. Amma camaatın seçdiyi şəxs mən olacağam. Buna əminəm.

***- 123 saylı Kəlbəcər seçki dairəsi hakimiyyət üçün önəmli dairələrdən biridir. Bu amil sizi narahat edirmi? İndiyədək hansısa müdaxilələrlə qarşılaşmısınız?***

- Öncə deyim ki, bəzi şəxslər və dairələr çalışdılar ki, Kəlbəcər seçki dairəsində seçkini İsgəndər Həmidov-Cavid Qurbanov qarşıdurmasına çevirsinlər. Mən qətiyyən bunun tərəfdarı deyiləm. Yaxşı haldır ki, seçkidə hakimiyyətdən olan opponentim Cavid Qurbanov da buna getmədi. Bizim dairədən 10 nəfərin namizədliyi qeydə alınmışdı. Bir neçəsi artıq namizədliyini geri götürüb. Heç kim bir-biri ilə qarşıdurmaya getməyib və getmir. Normal seçki mübarizəsi aparırıq. Kəlbəcərlilərin bir əxlaqı var və o əxlaq imkan vermir ki, biz seçkini qarşıdurmaya, düşmənçiliyə çevirək və bir-birimizin arxasınca danışaq. Seçkidə bir-birinin rəqibi olmağı adi hal sayırıq. Cavid Qurbanov tərəfindən mənim seçki kampaniyama heç bir problem yaradılmayıb, heç bir maneə yoxdur. Hətta Cavid Qurbanovun seçicilərlə görüşündə kimsə yarınmaq fikrinə düşüb mənim arxamca danışmaq istəyib, Cavid Qurbanov deyib ki, belə lazım deyil, biz bura özümüzü təbliğ eləməyə gəlmişik. Bilirsiniz ki, Cavid Qurbanov tanınan bir nəslin nümayəndəsidir, Aşıq Şəmşirin nəvəsi, Qənbər müəllimin oğludur. Yeni hamımız bir-birimizi yaxşı tanıyırıq. Odur ki, nəzərə alırıq ki, seçki kampaniyası gəlib keçəndir, amma həmyerlilik, el-oba məsələsi daim qalır. Maddi resurslara gəldikdə isə təbii ki, mənim maddi imkanlarımın olmaması seçki kampaniyamda problemdir. Halal olsun doğma kəlbəcərlilərimə ki, bizə münasibətlərində maddi imkan məsələsini önə çıxarmırlar.

***- Oktyabrın 27-də həmyerliləriniz Dilqəm Əsgərovla Şahbaz Quliyevin üzərində separatçı Dağlıq Qarabağ rejiminin qondarma məhkəmə qurmasından bir il ötür. Düz bir il öncə Dilqəm və Şahbaza qarşı bütün dünyanın gözü qarşısında qondarma məhkəmə quruldu və onlara çox ağır cəza kəsildi. Azərbaycan dövlət və cəmiyyət olaraq Dilqəm Əsgərovla Şahbaz Quliyevin azad olunması, ən azından "məhkəmə prosesi"nin pozulması üçün gərəkən bütün addımları ata bildimi?***

- Dəfələrlə bəyan etmişəm ki, Dilqəm Əsgərovla Şahbaz Quliyevin azad olunmasının yolu bir neçə iri çəkili ermənini ələ keçirib onlarla dəyişməkdir. Hətta bunun üçün dövlət mənə sanksiya verərsə, erməni ələ keçirib gətirmək məsələsini həll etməyə hazır olduğumu da bəyan etmişəm. Təəssüf ki, Azərbaycan hakimiyyəti Dilqəmlə Şahbazı azad etmək məsələsində gərəkənlərin hamısını etmədi. Artıq onların barəsində mediada da demək olar ki, heç nə yazılmır, heç bir iş aparılmır. Sanki hansısa qaranlıq əlin işarəsi ilə Dilqəm və Şahbaz məsələsini tamamilə kənara qoymaq, unutmaq, xalqa unutdurmaq göstərişi verilib. Azərbaycan dövləti hər iki qəhrəman soydaşımızın azadlığına nail ola bilərdi. Sadəcə, bu iş üçün lazım olan addımlar atılmalı idi. Biz Dilqəmə və Şahbaza minnətdar olmalıyıq ki, onlar hər cür işgəncəyə rəğmən Azərbaycan dövlətinin əleyhinə bir cümlə belə ifadə vermədilər. Onlara separatçı "Dağlıq Qarabağ Respublikası"nın rəhbərliyinə əfv üçün müraciət yazmaları da təklif edildi. Ancaq hər ikisi Azərbaycanın maraqlarını öz həyatlarından üstün tutdular və "Dağlıq Qarabağ" adında respublika olmadığını bəyan etdilər. Bu, hər kişinin bacara biləcəyi iş deyildi, ancaq qəhrəman qardaşlarımız bunu bacardılar. Dilqəmlə Şahbazın dözümü, iradəsi, vətənə sadiqliyi, qorxmazlığı tarixdə az-az təkrarlanan fenomendir. Bunu bir örnək kimi gənclərə, yeniyetmələrə məktəblərdə təbliğ, tədris etmək lazımdır. Hər kəs onlarla fəxr etməlidir. Mən Dilqəm və Şahbaz kimi kişilərlə həmyerli, soydaş, əmioğlu olmağımla fəxr edirəm.



> **"Dilqəm və Şahbaz məsələsini tamamilə kənara qoymaq, unutmaq, xalqa unutdurmaq göstərişi verilib"**

***- İsgəndər bəy, Milli Təhlükəsizlik Nazirliyi, sabiq nazir Eldar Mahmudovla bağlı baş verənləri, hər halda, izləyirsiniz. Eldar Mahmudovun vaxtilə "OBXSS" işlədiyi və milli təhlükəsizlik naziri olandan sonra həmin sistemi bu vacib struktura tətbiq etdiyi bir sıra insanlar tərəfindən bildirilir. Qeyd olunur ki, belə bir şəxs MTN kimi vacib struktura rəhbər qoyulmamalı idi. Siz də SSRİ dövründə "OBXSS" işləmisiniz. Bu iddialara münasibətiniz necədir? Eldar Mahmudovla şəxsən tanışlığınız olub?***

- Milli Təhlükəsizlik Nazirliyinin bir çox adamlarının iş adamlarını taladığı, reketçiliklə məşğul olduğu, ölkədə biznesi çökdürdüyü barədə şəxsən mən hələ 4-5 il öncə mediaya müsahibələrimdə fikirlər bildirmişdim. Hətta bir dəfə bəyan etmişdim ki, Milli Təhlükəsizlik Nazirliyini elə vəziyyətə gətiriblər ki, dönüb olub Millətə Təhlükə Nazirliyi. Bunları mən boşuna demirdim. Biz də sistem işçisi olmuşuq, az-çox təcrübəmiz və məlumatlarımız var. Təəssüf ki, dəfələrlə edilən xəbərdarlıqlara vaxtında məhəl qoyulmadı. İndi görünür, Eldar Mahmudov hardasa siyasi hakimiyyətin birbaşa marağına zidd hərəkətə yol verib, ona görə də cəzalandırıldı. Bu addım illər öncə atılmalı idi. Gözləmək lazım deyildi ki, 11 il keçsin. O ki qaldı Eldar Mahmudovun "OBXSS", keçmiş polis zabiti olması məsələsinə və məlum işləmək mexanizminə onun keçmişinin təsir göstərməsi barədə iddialara, əvvəla, DİN orqanlarında çox peşəkar, qanunlara hörmət edən insanlar işləyir və kiminsə korrupsioner olmasında, qanunları ayaqlar altına atmasında keçmişdə polis olması rol oynamır. İkincisi, "OBXSS" deyilən orqan SSRİ dönəmində idi və sənədlərlə işləyirdi, reketliklə məşğul deyildi. Eldar Mahmudov "OBXSS"-də işləməyib. Eldar Mahmudov DİN-də əvvəl İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə, sonra isə Narkobiznesə Qarşı Mübarizə İdarəsində işləyib. Şəxsən tanışlığa gəlincə, onunla tanışlığım olmayıb.

***- Onun bu posta təyinatına münasibətiniz necə olub?***

- Eldar Mahmudov nazir təyin olunandan sonra da bildirmişdim ki, MTN strukturu ilə DİN strukturu ayrı-ayrı şeylərdir. MTN dövlətin bel sütunudur. Əgər dövlətin bel sütunu bu qədər çirkab işlərə bulaşırsa, dövlət hələ ayaq üstə qala bilibsə, böyük işdir. Hesab edirəm ki, həbslər daha yuxarılara doğru aparılmalıdır. Lakin artıq belə sezilir ki, yenə də həmişəki əsas fiqurlar qıraqda qalır, orta və aşağı ranqlı fiqurlar həbsə atılır. Azərbaycanı iqtisadi, siyasi fəlakətlərdən xilas etmək üçün ilk növbədə ölkədə inhisarçılıq, gömrükdə rüşvətxorluq aradan qaldırılmalıdır. Bunlar edilmədiyi halda gündə 50 dənə fərman olsa da müsbət dəyişiklik mümkün olmayacaq. Soyğunçuluq gömrük, vergi orqanlarında və digər strukturlarda da dəhşətli həddədir. Adını çəkdiyim orqanların da rəhbərliyi vəzifədən uzaqlaşdırılmalıdır, məhkəmə qarşısına çıxarılmalıdır. Onlar MTN-çilərdən də pis hala düşməlidirlər. Bunlar olmayacaqsa, təkcə MTN-lə bağlı tədbirlərlə problemləri həll etmək mümkün deyil.

***- Yayılan məlumatlara görə, dediyiniz o cəzalandırma dalğası artıq Vergilər Nazirliyi strukturuna və digər qurumlara da çatıb. Vergilər Nazirliyinin cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili baş idarəsinin rəisi, general-mayor Vidadi Məmmədovun vəzifəsindən azad edildiyi və saxlanılaraq "MTN işi"nin istintaqına cəlb edildiyi məlumatı yayılıb. Vidadi Məmmədovun sizinlə qohum olduğu haqda məlumatlar da var. Bu, düzdürmü?***

- Bəli. Dediyiniz general Vidadi Məmmədovla qohumluğumuz var. Vidadi Məmmədov mənim əmim qızının həyat yoldaşıdır. Lakin düz 22 ildir mənə salam vermirdi. Oğlu da MTN-də işləyir. Vidadi Məmmədov əslən Göyçə mahalındandır. Kim qanunları pozubsa, cinayət edibsə, istər mənim qohumum olsun, istər hansısa nazirin qohumu olsun, fərq etməz, mütləq cəzasını almalıdır. Vəzifəli adamların qohumları cinayət edirsə, onlara cəza bir az da sərt olmalıdır.

**Etibar SEYİDAĞA**

# Hakimiyyət müxalifətin kadr bankından istifadə edə bilərmi?

## Pənah Hüseyn: "Milli birlik amili ilə Azərbaycan cəmiyyətinin bütün qüvvələrinin birləşməsi lazımdır"

**Hakimiyyət strukturları ilə bağlı hökm sürən neqativlər, hətta cinayət xarakterli faktların ən yüksək səviyyədə etiraf olunması, prezidentin bununla bağlı sərt mövqe sərgiləməsi son günlərin əsas müzakirə mövzusudur. Belə bir durumda hakimiyyətin kadr potensialının zəifləməsi barədə yanaşmaların da şahidi olmaqdayıq. Hakimiyyətdəki kadr çatışmazlığının ötən ilin payızında hətta administrasiya rəhbəri səviyyəsində bəyan edilməsi məsələnin ciddiliyindən xəbər verirdi.**

Xatırladaq ki, həmin vaxt PA rəhbəri Ramiz Mehdiyev "Açıq etiraf etmək lazımdır ki, həm Prezident Administrasiyası, həm nazirliklər, həm də yerli hakimiyyət strukturları bu gün ciddi kadr böhranı problemi ilə üzləşiblər. Biz hamımız müasir idarəetmənin incəliklərinə bələd olan hazırlıqlı kadrlara ehtiyac duyuruq və etiraf etməliyik ki, yüksək tələblərə uyğun kadr tapmaqda çətinlik çəkirik. Prezident Administrasiyasının kadr ehtiyatı şəxsən məni administrasiya rəhbəri kimi heç cür qane etmir" - deyə söyləmişdi. İrəli çəkilən bəzi gənc kadrların sonradan cəzalandırılması isə vəziyyətin kritik olduğunu bir daha təsdiqlədi. Belə rəy yaratdı ki, hakimiyyət hətta gənc kadrlara da etibar edə bilmir. Ancaq bu da var ki, Azərbaycanın müxalifət düşərgəsində, həmçinin QHT sektorunda kifayət qədər kadrlar var ki, vətənə, dövlətə xidmət etmək potensialına malikdirlər. Partiyasiz xeyli adam var ki, yüksək təhsillidir, vaxtilə idarəçilikdə təmsil olunub, amma işsiz-gücsüzdür. Üstəlik, xeyli adamlar nəinki işə götürülmür, hətta tutduğu vəzifədən qovulur. Bəs indiki çətin dönəmdə, islahatlar yolunu tutduğunu bəyan edən hakimiyyət müxalifətin kadr bankından yararlana bilərmi, yaxud belələrini irəli çəkərmi?

**AXP sədri Pənah Hüseyn konkret təkliflərlə çıxış etdi:** "İstər dünyada, istər regionda cərəyan edən hadisələrin, ümumdünya, regional və ölkədəki sosial-iqtisadi böhran əlamətləri əhalini, cəmiyyəti ciddi təşvişə salıb. Ona görə də cəmiyyətin bütün potensialı bu vəziyyətdən maksimum zərərsiz çıxmağa cəlb olunmalıdır. O baxımdan istər siyasi müxalifətin, istər vətəndaş cəmiyyəti təşkilatlarının, ayrı-ayrı mütəxəssislərin imkanlarından maksimum istifadə olunmalıdır. Siyasi mənsubiyyət və siyasi komanda məsələsi ikinci plana keçməlidir. Milli birlik və milli həmrəylik amili ilə Azərbaycan cəmiyyətinin bütün qüvvələrinin birləşməsi lazımdır. Hesab edirəm ki, cəmiyyət miqyasında kifayət qədər potensial var ki, bu böhran dövründən ölkəni çıxarda biləcək komanda formalaşdırılsın". **P.Hüseyn qeyd etdi ki, burada söhbət mütəxəssis, yaxud ayrı-ayrı sahələrdə peşəkarların olub-olmamasından getmir:** "Belə bir komandanın formalaşması, milli birliyin ortaya çıxması bu gücü qat-qat artırardı, ölkədəki sosial-psixoloji mühiti ciddi şəkildə dəyişdirərdi. Bu baxımdan da bu yanaşmanın həyata keçirilməsinə zərurət var. Konkret olaraq, əlbəttə, ola bilər ki, iqtidar müəyyən dövrdə indiki komanda ilə hərəkət edə, müəyyən məsələləri həll edə bilirdi. Ancaq artıq situasiya dəyişib və sürətlə dəyişməkdə davam edir. O baxımdan burda söhbət mütəxəssis kasadlığından yox, sistem xarakterli müəyyən fəsadlardan gedir".



**Mehman Əliyev:** "Hakimiyyət buna hazır deyil"



**Fəzail Ağamalı:** "Müxalifətdə Azərbaycan dövlətçiliyinə ciddi töhfələr verəcək şəxsləri görmürəm, tanımıram"

**"Turan"Agentliyinin direktoru Mehman Əliyev müxalifət təmsilçilərinin, yaxud müstəqil ictimai-siyasi fəaliyyətlə məşğul olan şəxslərin vəzifə olimpinə irəli çəkilməsini real saymır:** "Çünki hakimiyyət buna hazır deyil. Ümumiyyətlə, hakimiyyətin böhranla bağlı elan etdiyi tədbirlərə nəzər salanda görürük ki, bu, sadəcə olaraq, emosional və impulsiv xarakter daşıyır. Yəni ortalıqda vəziyyətdən çıxmaq üçün sistemli, antiböhran proqramı yoxdur. Kadrlar məsələsi antiböhran proqramı çərçivəsində bir komponent ola bilər. Lakin sadəcə olaraq, hakimiyyət hələ fikirləşir, keçmiş durumdan o qədər də uzaqlaşa bilmir, yeni vəziyyətə də girmək istəmir. Yəni bu, psixoloji amildir və çox vacib bir məsələdir. Bəlkə də ümid edirlər ki, neftin qiyməti qalxdı, vəziyyət yaxşılığa doğru dəyişdi". **M.Əliyevin sözlərinə görə, hakimiyyət hələ ki ciddi islahatların aparılması üçün qərar verməyib, cəmiyyətə konkret proqram təqdim etməyib:** "Ona görə də problemlər bu şəkildə həll olunmayacaq. Özü də hazırda söhbət kadrlardan yox, daha çox prinsiplərdən gedir. Hakimiyyət prinsipləri, yanaşmaları dəyişməlidir, siyasi, iqtisadi sahədə prinsiplərin dəyişməsini həyata keçirməlidir. Ortada yeni bir fəlsəfə olmalıdır. Çünki vəziyyət ortaya tamam başqa bir tələb qoyur".

**AVP sədri, deputat Fəzail Ağamalı isə səslənən tənqidi fikirlərlə razılaşmadığını bildirdi:** "Əslində məmura müstəqil Azərbaycan dövlətini yüksək dəyərlərlə, böyük sədaqətlə təmsil etmək, onun müxtəlif pillələrində xidmət etmək, dövlət quruculuğuna xidmət etmək, xalqa təmənnasız xidmət göstərmək böyük bir şərəfdir. Ötüb-keçən 25 il ərzində belə dəyərləri, yüksək vətənpərvərlik, dövlətə sədaqət hissini özündə aşılayan kadrların formalaşması indi gedir. Bu kadrlar müstəqillik dövründə formalaşan 35-50 yaş arasında olan kadrlardır. Bu gün hakimiyyətdə olanların əksəriyyəti dünyagörüşü kifayət qədər formalaşan, dövlətə, xalqa sədaqətli insanlardır. Lakin içində təbii ki, etimadı doğrultmayan, böyük bir missiyanı yerinə yetirmək əvəzinə, ailə-korporativ maraqlarını düşünən, var-dövlət yığmağa üstünlük verənlər də var. Mən istəməzdim ki, bu faktı ümumiləşdirəm. Vaxtilə işdən uzaqlaşdırılan bir neçə gənc kadrla bağlı tamam başqa nüans ortalığa çıxmışdı. Onlar başqa bir sahədə özlərini ifadə etdiklərinə, başqa bir ideoloji təsirə məruz qaldığına görə hakimiyyətdən uzaqlaşdırıldılar və bu, doğru qərar idi. İndiki vəziyyətdə isə bir neçə nəfərin hərəkətlərini ümumiləşdirib bütövlükdə Azərbaycanda kadr böhranının olduğunu deyə bilmərəm". **F.Ağamalı administrasiya rəhbərinin fikirlərini təsdiqlədi:** "Bəli, Ramiz müəllim bu faktı ortalığa gətirdi. Həqiqətən də onun dediyi problem ölkəmizdə var. Lakin bunun üçün zamana ehtiyac var. Müstəqillik dövründə təhsil alan, tam müstəqil düşüncəsi, dünyagörüşü ilə formalaşan insanların artıq hakimiyyətin aşağı qatlarında fəaliyyətə başlaması faktdır. Ümidvaram ki, yaxın gələcəkdə kadr məsələləri ilə bağlı hər hansı problemimiz olmayacaq". **AVP sədri hakimiyyətdə YAP üzvü olmayan, bitərəf insanların da olduğunu vurğuladı:** "Onlar bu və ya digər şəkildə hakimiyyətdə təmsil olunmaq imkanlarına malikdirlərsə, yüksək idarəçilik qabiliyyətinə, Vətənə, dövlətə sədaqət kimi ciddi dəyərləri özlərində daşıyırlarsa, təbii ki, diqqətdən kənarda qalmırlar və hakimiyyətin idarə olunmasına cəlb edilirlər".

**Müxalifətə gəldikdə, F.Ağamalı bildirdi ki, müxalif düşərgədə belə kadrları tanımır:** "Mən bu gün müxalifətdə Azərbaycan dövlətçiliyinə ciddi töhfələr verəcək şəxsləri görmürəm, tanımıram. Çünki vaxtilə müxalifətdə olanların əksəriyyəti ordan istefa verdilər, ya neytral qaldılar, ya da YAP-a daxil oldular. Yəni müxalifətdə yüksək biliyə, idarəçilik imkanlarına malik olan insanları şəxsən mən göz önünə gətirə bilmirəm".

❑ Cavìd TURAN

# Azərbaycan "Putin İttifaqı"na qoşula bilər - Bakıdan Kremlə daha bir mesaj

## Qərblə münasibətlərin sahmana salınmaması fonunda şimala "boylanmalar" davam edir; prezident İlham Əliyevin Gürcüstan səfəri "sualtı daşlar"ı götürəcəkmi?




**Rusiyanın bölgədə fəallaşması, hətta uzaq coğrafiyada - Yaxın Şərqdə, Suriyada Qərbə və Türkiyə az qala meydan oxumağa başlaması sözsüz ki, həm də yaxın hədəflərə hesablanıb. Söhbət öncəliklə Moskvanın Cənubi Qafqaz regionunda izlədiyi hədəflərdən gedir.**

Şimal qonşumuz sübhəsiz ki, Yaxın Şərq siyasətindəki uğurların "bar-bəhrəsi"ni ən əvvəl postsovet məkanında - Güney Qafqazda, Ukraynada götürmək istəyir. Bölgəmizdəki əsas hədəf dövlətlər isə Azərbaycan və Gürcüstandır.

Bu iki ölkə arasında iqtisadi-siyasi əlaqələri zəiflətmək və onları təkləyib Rusiyanın geosiyasi çətiri altına qaytarmaq Kremlin çoxdankı arzusudur. Belə yazmaq mümkünsə, Rusiya hər iki ölkəyə qarmaq atmaqda davam edir. Təbii ki, Bakı da, Tiflis də bunun fərqindədir və daima preventiv addımlar barədə götür-qoy edirlər. Bu xüsusda prezident İlham Əliyevin noyabrda Gürcüstana gözlənilən səfəri yetərincə həssas bir dönəmə təsadüf edəcək və mühüm əhəmiyyət daşıyır.

***

Konkret Azərbaycana gəlincə, ilk baxışda Bakı ilə Moskva arasında münasibətlər kənardan rəvan və problemsiz görünə bilər. Əslində isə əlaqələrdəki "sualtı daşlar" kifayət qədərdir və bu "daşlar" da əlbəttə ki, məhz Rusiyanın planları ilə əlaqədar, onun özü tərəfindən qoyulub. Rusiyanın proqnoza yatımlı ölkə olmadığını ciddiyə alan rəsmi Bakının bu mənada "sualtı daşlar"dan qorunmaq üçün önləyici addımlar atması anlaşılandır.

İkitərəfli münasibətlərin rəvan olmadığını ən əvvəl ondan görmək olar ki, Moskva verdiyi vədlərə rəğmən, Dağlıq Qarabağ məsələsində hər hansı irəliləyişə yardımçı olmayıb. Bakının Avrasiya Birliyinə daxil olmaq üçün qoyduğu Qarabağ şərti - hansını ki, rəsmi Kremlin reallaşdırması çətin deyil - bu günədək ciddiyə alınmır.

Yada salaq ki, bu barədə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun dilindən iki dəfə Rusiyaya mesaj çatdırıb. Bu mesajlardan biri nazir Moskvada olarkən verilib. Azərbaycanın "Putin birliyi"nə qoşulmasının mümkünlüyü ilə bağlı sualı cavablandıran XİN başçısı bildirib ki, gələcəkdə hər şey ola bilər və "heç vaxt heç vaxt demə" məşhur kəlməsini xatırladıb.

O zaman nazir Rusiya mediasına müsahibəsində Bakının məsələdə tərəddüdünü tam haqlı olaraq işğalçı Ermənistanla Azərbaycanın eyni ittifaqda təmsilçiliyinin mümkünsüzlüyü ilə izah etmiş və əlavə eləmişdi ki, əgər ermənilər Azərbaycan torpaqlarından çıxmağa başlasa, yeni situasiya yaranar və üzvlüklə bağlı münbit zəmin yaranar.

***

Hələ ki, top necə deyərlər, Rusiyanın (Ermənistanın) meydanındadır. Əfsuslar olsun ki, Moskva öz satellitinə Bakının əsas və haqlı şərti ilə bağlı təzyiq eləmək niyyətində görünmür. Bu da belə bir təhlükəli versiya üçün əsas yaradır ki, yəqin Rusiya Azərbaycanı heç bir güzəştsiz-filnsız "qazanmaq" niyyətindədir.

Yaranmış vəziyyətdə əlbəttə ki, ən həssas mövqe Azərbaycanındır. Bakının Qərblə münasibətlərində yaşanan obyektiv problemlər nəzərə alınarsa, o zaman Rusiyadan ehtiyatlılıq üçün daha bir əsas ortaya çıxmış olar.

Bu üzdən Qərblə əlaqələr sahmana salınmayınca, Azərbaycan hakimiyyətinin şimala ünvanlı preventiv gedişlərinin və "boylanmalarının" şahidi ola bilərik. Özü də vacib deyil ki, belə gediş-reveranslar mütləq Prezident Administrasiyasının səlahiyyətliləri tərəfindən edilsin.

***

"Azərbaycan Avrasiya İqtisadi İttifaqına daxil olmaq imkanını istisna etmir". Bu fikri Azərbaycanın iqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova söyləyib. (Virtualaz.org). Onun sözlərinə görə, Azərbaycan ona fayda gətirəcək ittifaqlarda iştirak edə bilər. "Ancaq bunun üçün belə təşkilatlarda iştirakın bütün mənfi və müsbət tərəflərini təhlil etmək, ətraflı qiymətləndirmə aparmaq lazımdır", - deyə nazir müavini jurnalistlərə açıqlamasında vurğulayıb.

Xatırladaq ki, Avrasiya İqtisadi İttifaqı Beynəlxalq Gömrük İttifaqı və vahid iqtisadi məkan bazasında yaradılan və cari ilin yanvar ayının 1-dən fəaliyyət göstərən beynəlxalq inteqrasiya iqtisadi birliyidir. Hazırda Avrasiya İqtisadi İttifaqının üzvləri Rusiya, Ermənistan, Belarus, Qazaxıstan və Qırğızıstandır.

Göründüyü kimi, qurumda Güney Qafqaz faktiki, təmsil olunmayıb. Çünki heç bir iqtisadi, geosiyasi çəkisi olmayan Ermənistan Rusiyanın faktiki, bir quberniyasıdır və üstəlik, onun Rusiya ilə quru əlaqəsi olmadığından "Putin ittifaqı" üçün hər hansı önəm daşımır. Azərbaycan isə... ayrı məsələ.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 238 (6266) 27 oktyabr 2015



## Axtarışda olan şəxs polisi güllələdi

**Daxili İşlər Nazirliyi Bakıda polisin güllələnməsi ilə bağlı məlumat yayıb. Lent.az nazirliyin saytına istinadən xəbər verir ki, oktyabrın 26-da saat 05 radələrində Xətai rayonu ərazisində xidmətdə olan 36-cı polis bölməsinin əməkdaşları İltifat Bayramov və İsmayıl Şahbazov şübhə doğuran 2 nəfərə yaxınlaşarkən onlardan biri odlu silahdan açdığı atəşlə İ.Bayramova ayaq nahiyəsindən xəsarət yetirib hadisə yerini tərk ediblər.**

Görülmüş tədbirlərlə onlardan biri - Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Yevgeniy Antonovskiy tutulub və ondan kustar üsulla hazırlanmış tapança götürülüb.

Araşdırmalar aparılır.

## Qətl törədənlərə üst-üstə 35 il cəza verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində qətldə təqsirləndirilən Kərim Kərimov və Fuad Əliyevin cinayət işi məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə Kərim Kərimov 18 il, Fuad Əliyev 17 il müddətə azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, Kərim Kərimov, Fuad Əliyev, İlham Şadıyev və Əli Süleymanov "Xəqani" bağında olarkən Şahin Quliyevlə mübahisə ediblər. Bu zaman K. Kərimov üstündə gəzdirdiyi bıçaqla, Fuad Əliyev isə fiziki zor tətbiq etməklə Ş. Quliyevə müxtəlif dərəcəli bədən xəsarətlər yetirərək hadisə yerindən qaçıblar. Ş. Quliyev xəstəxanada ölüb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (*enurez*)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Dilənçi polis bölməsində damarlarını doğradı

**Bakıda dilənçilik etdiyi üçün saxlanılan şəxs polis bölməsində intihara cəhd edib. Musavat.com xəbər verir ki, Səməd Vurğun parkında dilənçilik edən Yevlax rayon sakini 1984-cü il təvəllüdlü Rafiq Bəkirov Post Patrul Xidməti Bölüyünün əməkdaşları tərəfindən saxlanılıb.**

Rafiq Bəkirov Nəsimi rayonu 22-ci Polis Bölməsinə gətirilib.

R.Bəkirov bölmənin giriş qapısına çatanda ağzından çıxardığı lezva ilə qolunun damarlarını kəsib.

Psixoloji problemlərinin olduğu deyilən R.Bəkirov xəstəxanaya yerləşdirilib. O, yardım aldıqdan sonra xəstəxanadan buraxılıb.

## Bakıda 20 il gecikən şikayət: 1 milyonluq dələduzluq

**Bakı sakini 20 il əvvəl törədilən cinayətə görə hüquq-mühafizə orqanlarına müraciət edib. Musavat.com xəbər verir ki, Bakı sakini 1950-ci il təvəllüdlü Nəriman Cəbrayılov Xətai Rayon Prokurorluğuna müraciət edərək 20 il əvvəl aldadıldığını deyib.**

N.Cəbrayılov bildirib ki, 1995-ci ilin iyul ayında Firudin Qasımov onun etibarından sui-istifadə edərək ona məxsus S.Vəzirov küçəsində yerləşən 1 milyon 100 min manat dəyərində olan qeyri-yaşayış sahəsini öz adına rəsmiləşdirib.

Bu müddət ərzində N.Cəbrayılov öz mülkünü qarşılıqlı razılaşma ilə F.Qasımovdan almağa cəhd edib. Lakin tərəflər arasında dəfələrlə görüş olsa da razılıq əldə olunmayıb.

Faktla bağlı rayon prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi açılıb.

N.Cəbrayılovun şikayəti ilə bağlı Xətai Rayon Polis İdarəsində araşdırma aparılır.

## 18 yaşlı qız üçüncü mərtəbədən yıxıldı

**Bakıda bədbəxt hadisə baş verib. 18 yaşlı qız pəncərə silərkən üçüncü mərtəbədən yıxılıb. Hadisə şahidlərinin musavat.com-a verdiyi məlumata görə, 1997-ci il təvəllüdlü Nigar Aslanlı evlərinin pəncərəsini silərkən yıxılıb. Hadisə Binəqədi rayonunda baş verib. 8-ci mikrorayonda yaşayan N.Aslanlı binanın üçüncü mərtəbəsindən yıxılıb. Xoşbəxtlikdən N.Aslanlı sağ qalıb.**

Gənc qız kəllə-beyin travması ilə xəstəxanaya yerləşdirilib.

## 43 yaşlı kişi intihar etdi

**Bakıda 43 yaşlı kişi özünü asıb. Hadisə Suraxanı rayonunda baş verib. Musavat.com xəbər verir ki, Bülbülə qəsəbəsi, M.Abdullayev küçəsində yaşayan 1972-ci il təvəllüdlü Rauf Dadaşov intihar edib.**

Hadisə şahidlərinin verdiyi məlumata görə, R.Dadaşov özünü evinin çardağından kəndirlə asıb.

İntiharın səbəbləri məlum deyil.

**Hazırladı: İlkin MURADOV**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34




## 1069 nəfərə narkomaniyadan məcburi müalicə təyin edilib

**Azərbaycan prezidentinin 2013-cü il 24 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının aidiyyəti bəndlərinin icrası ilə bağlı 2015-ci ilin 9 ayı ərzində bir sıra işlər görülüb. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, Ədliyyə Nazirliyi tərəfindən 9 ay ərzində nazirliyin Respublika Narkoloji Mərkəzinə məhkəmə-narkoloji tibbi yoxlamadan keçmək üçün 1882 nəfər göndərilib: "Onlardan 1069 nəfərinə narkomaniyadan məcburi müalicə təyin edilib".**

Məlumatda bildirilib ki, 2015-ci ilin 9 ayı ərzində 12 özəl tibb müəssisəsinə və 5 aptekə baxış keçirilib və müvafiq aktlar tərtib olunub.

2015-ci ilin 9 ayı ərzində sərxoşluq hallarının bütün növlərinin təyini məqsədilə aparılan tibbi müayinədən 24925 nəfər keçib: "Onlardan 554 nəfər narkotik vasitələrin istifadəsinə görə müayinə olunub, 189 nəfər istifadəçi aşkarlanıb və müvafiq qeydiyyata götürülüb".

2015-ci ilin 9 ayı ərzində 2157 nəfər stasionar müalicəyə qəbul olunub: "Onlardan 1016 nəfəri "Alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları", 933 nəfəri "Opioidlərin qəbulu nəticəsində psixi və davranış pozuntuları" diaqnozları ilə stasionar müalicəyə qəbul olunub. 208 nəfəri isə digər diaqnozlarla stasionar müalicəyə qəbul edilib".

Qeyd olunub ki, Səhiyyə Nazirliyinin "Respublika Narkoloji Mərkəzində insan immunçatışmazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqəsinin yaradılması barədə" 22/I-ŞH saylı 16.07.2011-ci il tarixli əmrinə əsasən 14.07.2011-ci il tarixdən Respublika Narkoloji Mərkəzində insanın immunçatışmazlığı virusunun infeksiyası üzrə könüllü məsləhət və müayinə məntəqəsi yaradılıb: "2015-ci ilin 9 ayı ərzində müayinədən 1783 nəfər keçib. Respublika Narkoloji Mərkəzinin mütəxəssisləri narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində aparılan işlər və bu bəlaya düçar olmamağın yolları barədə mütəmadi olaraq təbliğat aparırlar".


**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında elverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT
N 238 (6266) 27 oktyabr 2015

# Başımıza düşən zibillər...

## Ekoloq: "Küləklər başlayan kimi sellofan torbalar ağacları "bəzəyir""



**Yəqin ki, hər birimiz evdən çölə çıxarkən dar küçələrdəki zibil tullantılarına rast gəlmişik. Yaxud da gecənin sükutundan istifadə edən bir sıra vətəndaşların sellofan torbada zibili balkondan yerə atdığının şahidi olmuşuq. Bəlkə də göydən düşən bu zibillər çoxlarımızın qarşısına düşüb və ya üst-başımızı çirkləndirib.**

Zibil problemi xüsusən də küləkli havalarda daha dözülməz bir hala çevrilir. Bu mövzu haqda dəfələrlə yazılsa da, müsbət bir dəyişiklik baş vermir. Hətta zibili kənara atanlara cərimələrin tətbiq edilməsi belə bu problemi həll etmədi. Qeyd edək ki, tullantıların kənar yerlərə atılması, həmin yerlərdə saxlanılmasına görə fiziki şəxslər 20, vəzifəli şəxslər 100, hüquqi şəxslər isə 500 manat həcmində cərimə olunacaq. Şəhərlərdə və rayon (şəhər rayonları istisna olmaqla) inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumların (urnaların) yerləşdirilməsi zamanı qanunvericiliklə müəyyən edilmiş məsafənin nəzərə alınmamasına görə vəzifəli şəxslər 500 manat, hüquqi şəxslər isə 1000 manat cərimə olunacaqlar. Həmçinin şəhərlərdə və rayon (şəhər rayonları istisna olmaqla) inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumlar (urnalar) arası məsafə 100 metrdən çox olmamalıdır.

Xatırladaq ki, dünyanın bir çox ölkələrində zibillər təkrar emala gedir, hətta tullantılardan enerji əldə etmək üçün də istifadə edilir. Məsələn, İsveç il ərzində 2 milyon tondan çox zibil idxal edir. Hətta bu ölkə qonşu ölkələrdən zibil alır. Tullantıları enerji əldə etmək üçün istifadə edən ölkədə evlərdən çıxan zibillərin az qala hamısı elektrik istehsalında istifadə edilir. Bu məqsədlə İsveç başqa ölkələrdən, o cümlədən qonşusu Norveç, İngiltərə və İtaliya kimi Avropa ölkələrindən zibil idxal edir. Üstəlik, bu ölkələr İsveçə ixrac etdikləri tullantılar qarşılığında pul da ödəyir. İsveç Mərkəzi İsitmə İdarəsinin məlumatlarına görə, 2015-ci ildə ölkə xaricindən idxal edilən zibilin miqdarı 2 milyon tondan çox olub. Statistikaya görə, hər il dünyada zərərli tullantılar 40 milyon ton artır. Bu isə o deməkdir ki, bəşəriyyət 2035-ci ildə kosmosu itirə bilər. İngiltərə mətbuatının verdiyi məlumata görə, yerli alimlərin araşdırması xüsusilə gecə saatlarında zibillə dolu qabdan havaya öldürücü bakteriyaların sürətlə yayıldığını üzə çıxarıb. Sən demə, zibillə dolu qab bir həftə boşaldılmazsa, artıq ikinci həftədən başlayaraq, evdə havaya 600 faizədək yeni mikroorqanizmlər yayılmağa başlayır.

Maraqlıdır, azərbaycanlılar niyə zibili küçəyə atmağa meyillidir? Ümumiyyətlə, bütün dünyada olduğu kimi Azərbaycanda niyə zibil qutuları tullantıların çeşidlərinə görə sıralanmır?

**Ekoloq Telman Zeynalov küləklər başlayan kimi sellofan torbaların ağacları «bəzədiyini» dedi:** "Balkondan zibil atanlara cərimə tətbiq edildiyi üçün onların sayı azalıb. Balkondan zibil atanlar 20 manat cərimə olunur. Mənə elə gəlir ki, dövlət məmurları bilməlidir ki, onların fəaliyyəti nədən ibarətdir. Mənzil istismar sahələri adlı bir qurum, kooperativ idarələr var. Digər tərəfdən isə bələdiyyələr yaradıblar. Bu işləri də bir-birilərinin üzərinə futbol topu kimi atırlar. Dövlət sərəncam verməlidir ki, kim nə işlə məşğul olsun. Əgər bələdiyyə yaradılırsa, digər kiçik təşkilatlar bağlanmalıdır. Bakıda külək olan kimi bütün zibil torbaları ağacların üzərinə uçuşur. Bütün ağacların üstü bu rəngli sellofan torbalarla dolur. Dövlət bu torbaların satılmasına, buraxılmasına qadağa qoymalıdır və zibillər bu torbaya yığılmamalıdır. Vaxtilə kapron kisələr vardı. Onu indiki pulla 10 qəpiyə alırdıq və xeyli də gedirdi. Əhali bu torba ilə bazara gedirdi. Mağazalar da elan etməlidir ki, hər kəs alış-verişə öz torbası ilə gəlsin. Bu problem qaldırılmalı və qadağan olmalıdır. Əgər bu sellofan torbalar buraxılırsa, o zaman onu buraxanlar zəhmət çəkib gəlib onu küçələrdən yığsınlar. Zibilliyin təkrar emala getməsi üçün ayrıca qablar olmalıdır. Təkərlər ayrı, kağızlar ayrı qutulara yığılmalıdır. Dövlət bələdiyyələrə pul buraxmalı, onlar da zibil yeşikləri qoymalıdır və bu yeşiklərə ağzını bağlayın yazılmalıdır. Həmçinin yeşiklər tullantılara görə ayrı-ayrı olmalıdır".

Psixoloq Dəyanət Rzayev zibil atmanın özünün də bir mədəniyyət olduğunu bildirdi: "Mən bu problemi demokratik problemlə də bağlayıram. Bir kənd mədəniyyəti, bir də şəhər mədəniyyəti var. Müəyyən kateqoriyalı insanlar var ki, onlar üçün balkondan zibil atmaq normal bir haldır. Bu cür insanlar adətən hansısa bölgədən gəlib birdən-birə varlanıb bahalı binadan ev alan insanlardır. Bu cür insanlar nə qədər bahalı evdə yaşasalar da, onların daxili mədəniyyəti dəyişmir. Mən özüm də bunu bir neçə dəfə müşahidə etmişəm. Bizim binamızda yaşayan bir qadın ikinci mərtəbədən zibili guya zibil qabına atmaq istəyirdi. O da zibil qabının yanına düşdü və zibil sellofanı cırılaraq ətrafa yayıldı. Bu insan zibili aşağı düşüb atmağa tənbəllik edir. Bu tip insanlara gedib nəsə deyəndə insanı şərə salır. Bu gün Azərbaycanda heç kim heç kimə baş qoşmur. Çünki şərlənməkdən qorxurlar".

❑ **GÜNEL**

# Aşura günündə 5136 nəfər qan verib

## Mərkəzi Qan Bankının direktoru: "Bankdan alınan qanlar pulsuzdur"; Adil Qeybulla: "Könüllü verilən qan satıla bilməz..."



Foto TURAN

**Aşura günü ilə əlaqədar olaraq keçirilən qanvermə aksiyasında bu il də xeyli insan könüllü şəkildə qan verib. Hər kəsə məlumdur ki, toplanan qanlar yoxlanıldıqdan sonra xəstəxanalara göndərilir. Bəzən vətəndaşlarımız ehtiyacı olan yaxınlarına qanı pulla aldıqlarını bildirir və bu vəziyyətdən narazı olduqlarını vurğulayırlar. Axı könüllü surətdə təmənnasız qan verən insanın qanı xəstəyə necə pulla satıla bilər?**

Ümumiyyətlə, Aşura günündə nə qədər qan toplandığını, hansı kategoriyadan olan xəstələrə qanın pulsuz verildiyini öyrənmək üçün Səhiyyə Nazirliyinin Hematologiya və Transfiziologiya İnstitutunun nəzdindəki Mərkəzi Qan Bankı ilə əlaqə saxladıq.

**Bankın müdiri Pərvanə Hacıyeva Aşura günündə 5136 nəfərin qan verdiyini dedi:** "Bu qanların Bakı şəhərində 8 məsciddə, bir də Mərkəzi Qan Bankının binasında, rayonlarda isə 6 məsciddə və 2 mərkəzi qan bankının regional bölmələrində toplanıb. 3549 ədəd qan paketi Bakıda, bizim Mərkəzi Qan Bankındadır. 1587-si isə Qan Bankının regional bölmələrindədir. Hər regional bölməyə bir az qan düşür. Məsələn, hazırda Sumqayıt şəhərində 249 vahid, Mingəçevir şəhərində 238 vahid, Şəki şəhərində 62 vahid, Gəncə şəhərində 320 vahid, Bərdə 222 vahid, Lənkəranda 357 vahid, Şirvan və Quba regional qan banklarımızda isə 107 və 32 vahid qan var. Hazırda qanlar yoxlanılır. Bu günədək 60 insanın qanında infeksiya aşkarlanıb. Amma yoxlama davam edir. Hələ ki qanların demək olar, 40 faizi yoxlanılıb. Artıq yoxlanılmış qanlar xəstəxanalara buraxılır. Bu gün Talessemiya Mərkəzinə 250-300 vahid qan buraxılacaq".

**Qanın litrinin qiymətinə gəlincə, P.Hacıyeva Mərkəzi Qan Bankında qanın pulsuz olduğunu bildirdi:** "Mərkəzi Qan Bankının sertifikatları ilə olan qanların hamısı pulsuzdur. Ancaq Bakı şəhərində pullu xidmətləri olan xəstəxanalar da var. Məsələn, Mərkəzi Klinik Xəstəxanada, Dövlət Gömrük Hospitalı, Tibb Universitetinin Tədris Terapevtik klinikasında, Neftçilər xəstəxanasında qan pulludur. Bəzən insanlar yanlış anlayırlar və deyirlər ki, qanı pulla aldım. Ona görə də insanlar bilməlidir ki, Mərkəzi Qan Bankından alınan qanların hamısı pulsuzdur. Vətəndaşlar qan üçün çalışsınlar ki, başqa yerlərə, yəni pullu xidməti olan xəstəxanalara müraciət etməsinlər. Əgər xəstə dövlət xəstəxanasında yatırsa, Mərkəzi Qan Bankı ona təmənnasız, pulsuz qan verir. Nəyə görə gedib Mərkəzi Klinik Xəstəxanadan pulla almalıdır. Ona görə də belə insanları maarifləndirmək lazımdır. Mənfi rezuslu qan qrupları az olur. Ancaq ona tələbat da az olur. Ona görə də qruplar bir-birini ödəyə bilir. İnsanlarda tez-tez rast gələnən qan qrupları müsbət rezuslu 1-ci, 2-ci qan qruplarıdır. Bunun tələbatı da çoxdur və bu tələbat ödənilir".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla bildirdi ki, qanuna görə, qan pulsuz verilməlidir:** "Azərbaycanda qan bankı var və orada da kifayət qədər qan olur. Dövlət xəstəxanalarına qan birbaşa pulsuz verilir. Ümumiyyətlə, qanla bağlı məsələlər tamamilə qanunla təsbit olunub və onun istifadəsi pulsuz olmalıdır. Çünki qanı verənlər bunu pulsuz, könüllü verirlər. Qan satıla bilməz".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 238 (6266) 27 oktyabr 2015




## Dünyanın ən bahalı filmi çəkilir

Hazırda Hollivudda çəkilişləri davam edən "Betmen Supermenə qarşı" filmi dünya üzrə rekordları qırmaqda iddialıdır. Filmin büdcəsi 410 milyon dollar təşkil edir. Bu isə o deməkdir ki, film kinematoqrafiya tarixində ən bahalı ekran əsəri olacaq.

"Betmen Supermenə qarşı" filmi 2016-cı ildə ekranlara çıxacaq. İki məşhur və sevimli qəhrəmanın mübarizəsindən bəhs edəcək filmin nümayişi səbirsizliklə gözlənilir. Baş rolları Ben Aflek (Betmen), Qal Qadot Cessi Ayzenberq və Qenri /Kavil (Supermen) oynayır.

Hazırda dünyanın ən bahalı filmi "Karib dənizinin quldurları: qəribə sahillərdə" filmi hesab olunur. 2011-ci ildə çəkilmiş bu filmin büdcəsi 378,5 milyon dollara bərabər olub. Bu personaj rəssam Bob Keyn və yazıçı Bill Finqer tərəfindən yaradılıb. İlk dəfə 1939-cu ilin may ayında "Detektiv komiksləri" buraxılışının 27 nömrəli sayında dərc edilib.

Komiksdəki hadisələr Nyu-York şəhərinin elementləri ilə Çikaqo şəhərinə bənzəyən uydurulmuş Qotem şəhərində baş verir. Betmenin gerçək şəxsiyyəti xeyriyyəçi olan Brüs Ueyndir. Atası həkim Tomas Ueyn və anası Marta Ueyndir. Günlərin birində onlar gecə vaxtı kinoteatrdan çıxan zaman küçə oğrularından biri olan Co Çill tərəfindən öldürülüb.

# Soğan qabığının faydaları

**Soğan qabığı bir çox faydalı maddələrlə zəngindir. Bu maddələr bir sıra xəstəliklərin müalicəsində effektiv təsirə malikdir. Belə ki, soğan qabığı ürək-damar sistemi üçün olduqca faydalıdır. Qabığı çay kimi dəmləyib içmək lazımdır. Gündə yarım stəkan kifayət edir. Bu dəmləmə şəkər diabeti olan xəstələr üçün də profilaktik təsirə malikdir. Soğan qabığının tərkibindəki fitonsidlər güclü təbii antiseptik vasitə hesab olunur. Hətta bu dəmləmədən içərkən yuxarı tənəffüs yolları daha yaxşı işləyir. Lakin soğan qabığından hazırlanan dəmləmələr qastritdən, mədə yarasından əziyyət çəkən xəstələrə məsləhət görülmür.**



Soğan qabığından hazırlanan məlhəmdən həmçinin ağız boşluğu soyuqlaması, diş ağrıları və əllərin keyiməsi zamanı istifadə etmək olar. Qabiq dəmləməsi ilə baş yumaq saç dibini möhkəmləndirir. O, həmçinin saçlara parlaqlıq verir. Soğanın baş hissəsini kəsərkən atmaq lazım deyil, onu qabığı dəmləyərkən içinə əlavə etdikdə daha çox təsirə malik olur.

# İntihara qarşı tabutlu terapiya

**Hər gün təxminən 40 nəfərin özünü öldürdüyü Şimali Koreyada insanların intihar etməməsi üçün maraqlı üsul tapılıb: insanları tabuta qoyaraq müalicə etməyə çalışırlar. Dünyada intihar sayına görə ikinci yerdə duran Şimali Koreya bu dərddən xilas olmaq üçün beləcə, qəribə yola əl atıb.**

Hər gün təxminən 40 nəfər tabuta qoyulur və onlara ölümün necə hiss olunduğu izah edilir. Həyatlarının nə qədər dəyərli olduğunu daha yaxşı anlamaq istəyən koreyalılar "ölümdən əvvəl ölüm hissi verən kurslar"da iştirak edirlər. İştirakçıları həyatlarının mənasını dəyişdirən və özlərinə yeni bir şans vermək istəyən insanlar cənazədə geyilən paltarları geyərək tabuta uzanırlar. Onlar deyilənləri dinləyərək həyatın dəyərini daha yaxşı anlamağa çalışırlar.

Kurslarda intihar səviyyəsinin ən yüksək olduğu yaş qruplarının 20, 30 və 40 olduğu bildirilir. Kurslara qatılan 42 yaşlı, iki uşaq anası olan bir qadın ailəsini bununla sevindirdiyini və dərslərin onu intihar fikrindən çəkindirdiyini deyib.





## Mafiyanın "xəzinəsi" satılacaq

**Britaniya tarixinin ən böyük qaçaqmal qızıl-zinət əşyaları toplusu hərracda satılacaq. Milli.az "Daily Mail"ə istinadən bildirir ki, 2012-ci ildə Almaniyanın Frankfurt-Mayn şəhərindən Londona qaçaqmal yolu ilə aparılmış 9 milyon funt-sterlinqlik qızıl partiyası tutulub. Yerli media bu qızıl-zinət əşyalarını "xəzinə" adlandırır. Qızıl Londonun qərbindəki Hillinqdon səmtində fəaliyyət göstərən Əli Çaudrinin başçılıq etdiyi bandaya məxsusdu. Həmin "xəzinə"nin 150 kiloqramlıq hissəsi oktyabrın 30-da Belfast şəhərində keçiriləcək "Wilsons" hərracında satılacaq.**




**QOÇ** - Saat 16-ya qədər ümumi ovqatınızda gərginlik müşahidə olunduğundan əsas gücünüzü istirahətə yönəltməlisiniz. Bu gün sizə soyuq və duzlu qidalar qəbul etmək məsləhət görülmür.

**BUĞA** - İş yerində mübahisələriniz gözlənilir. Belə neqativ hallardan yayınmaq üçün davranışlarınızda nəzakətli olun. İndiki məqamda belə şeylər yaramaz. Büdcənizi sağa-sola səpməyin.

**ƏKİZLƏR** - Vaxtınızın əsas hissəsini sevgi amilinə həsr edin. İkili görüşlər, maraqlı gəzintilər sizə fərəh gətirəcək. Saat 15-18 arası maliyyə problemlərinizin həlli üçün uğurlu vaxtdır.

**XƏRÇƏNG** - Bu təqvimin yeganə bürcüsünüz ki, bəxtinizdə səfər və qonaqlıqlar durur. Enerjinizin çoxluğu qarşınızda duran bəzi maneələrin aradan qalxmasına təkan verəcək. Təki səbrli olasınız.

**ŞİR** - Sağlıq durumunuzu nəzarətdə saxlayın. Orqanizminizi gümrahlaşdırmaq üçün mümkün tədbirləri həyata keçirin. Bunun üçün ən rahat yol pəhriz saxlamaqdır. Maddi sıxıntılarınız azalmaqdadır.

**QIZ** - Hər mənada səmərəli təqvimdir. Bir tərəfdən perspektivli görüşlər, digər tərəfdənsə sevindirici xəbərlər ovqatınızı xeyli yüksəldəcək. Axşam dostlarınızla birgə gəzintiyə çıxın.

**TƏRƏZİ** - Bürclərin əksəriyyətində olduğu kimi bu gün sizin də səhhətinizdə ağırlıq gözlənilir. Qara ciyərinizlə bağlı problemləriniz mümkündür. Fəaliyyətdə isə çətinliyiniz gözlənilmir.

**ƏQRƏB** - İşgüzar sövdələşmələrdə iştirak etmək üçün olduqca səmərəli gündür. Müzakirələr apardığınız həmsöhbətləriniz sizə xeyirli olan fikirlər söyləyəcək. Qərarlarınızda qətiyyətli olun.

**OXATAN** - Səhhətinizlə bağlı bəzi xoşagəlməzlikləri nəzərə almasaq, günün əsas hissəsini rahat şəraitdə başa vura bilərsiniz. Mübahisələrdən uzaq olun. Axşama yaxın önəmli xəbər eşidəcəksiniz.

**OĞLAQ** - Sağlamlığınızla bağlı çətinliyinizi dəf edə bilsəniz, qarşıya qoyduğunuz planları reallaşdıra biləcəksiniz. Hətta nahardan sonra varlanma ehtimalınız da var.

**SUTÖKƏN** - Maliyyə problemlərinə görə özünüzü üzməyin. Çünki ulduzların düzümü gün ərzində bu istiqamətdə sevinəcəyinizi bildirir. İkitərəfli əməkdaşlıqdan imtina etməyin.

**BALIQLAR** - Yeni görüş və danışıqlar üçün uğurlu təqvimdir. Özünüzü təmkinli və dözümlü aparın ki, sövdələşmələrin nəticəsi xeyrinizə olsun. Özünüzü yerli-yersiz təriflməyin. Sadə olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## "Titanik"dəki şirniyyata rekord qiymət




**1912-ci ildə aysberqə çırpılaraq batan, 1514 nəfərin həyatını itirdiyi "Titanik" gəmisindən çıxarılan bir şirniyyat 22 min dollara satılıb. Üzərində "Spiller s& Bakers Pilot" yazılan şirniyyat İngiltərədəki "Henry Aldridge & Son" hərrac evində satışa çıxarılıb. Hərracın sonunda isə bir yunan şirkətinə satılıb. Gəminin James və Mabel Fenvik adlı sərnişinləri tərəfindən tapılan 103 illik şirniyyat dünyanın ən bahalı peçenyesi olaraq tarixə düşüb.**

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300